# Manaf Ağayev və iş adamı 15 sutka həbs olundu



**Müğənni Manaf Ağayev və onunla birgə olan Sənan Hüseynov müvafiq icazələri olmadan işğaldan azad edilmiş ərazilərə səfər etdiklərinə görə cəzalandırılıblar.** Onların barələrində protokollar tərtib edilib. Protokollar məhkəməyə göndərilib. Məhkəmənin qərarı ilə Manaf Ağayev və Sənan Hüseynov hər biri 15 sutka həbs olunub.

Qeyd edək ki, müğənni Manaf Ağayev işğaldan azad olunan ərazilərə icazəsiz keçdiyi üçün saxlanılıb. M.Ağayevin işğaldan azad olunan ərazilərə qanunsuz səfər etməsi ilə bağlı sosial şəbəkələrdə yayılan videodan sonra araşdırma aparılıb. Manaf Ağayevin Bakıda olduğu müəyyən olunub, onlar polis idarəsinə dəvət edilib. Araşdırma zamanı müəyyən olunub ki, onlar qanunsuz yollarla, icazə olmadan işğaldan azad olunmuş ərazilərə keçiblər.



## Türkiyə ordusu Suriyada 6 terrorçunu zərərsizləşdirib

**Türkiyə xüsusi təyinatlıları Suriyanın şimalında PKK/YPG-nin 6 terrorçusunu zərərsizləşdirib**

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Terrorçular "Zeytun budağı" zonasına hücuma hazırlaşsalar da, Türkiyə hərbçiləri onları məhv edib.


№ 32 (5554), 2022-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 19 fevral 2022-ci il (şənbə)




# Müdafiə Nazirliyində həbs dalğası genişlənəcək

Maliyyə pozuntularının aşkarlanması həm də orduda aparılan islahatların nəticəsidir

**Müdafiə Nazirliyində aşkarlanan maliyyə pozuntuları ilə bağlı daha bir hərbçi - Hərbi Hava Qüvvələrinin maliyyə xidmətinin sabiq rəisi, polkovnik Cəlal Kazımov həbs edilib. Hazırda istintaq tədbirləri davam etdirilir.**

Qeyd edək ki, bir neçə gün əvvəl də Müdafiə Nazirliyində həyata keçirilən əməliyyat zamanı qeydə alınan maliyyə pozuntuları ilə Maliyyə İdarəsinin rəisi Rafael Xəlilov,"N" hərbi hissənin maliyyə şöbəsinin rəisi Fəzail Əliyev, Quru Qoşunların maliyyə idarəsinin rəisi Bayram Bayramov və maliyyə idarəsinin zabiti Əlizadə Vüsal Ədalət oğlu həbs ediliblər.

(səh.4)



## Prezidentin köməkçisi xarici səyyahlarla görüşüb

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev işğaldan azad edilmiş ərazilərə səfər etmiş xarici bloggerlər və səyyahlarla görüşüb.**

Bu barədə Hikmət Hacıyev özünün "Twitter" hesabında bildirib. "3 günlük intensiv cədvəl çərçivəsində işğaldan azad edilmiş ərazilərə səfər edən Nomadmania səyyahları və bloggerlərlə görüşməkdən çox məmnunam. Biz Cənubi Qafqazda münaqişədən sonrakı inkişaf, Azərbaycanın sülh gündəliyi və Ermənistanla normallaşma perspektivləri barəsində danışdıq", - Azərbaycan Prezidentinin köməkçisi qeyd edib.

## Azərbaycanla Serbiya arasında viza tələbi aradan qaldırıldı



**Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlara malik şəxslər üçün viza tələbinin qarşılıqlı aradan qaldırılması haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununu təsdiqləyib.**

Sənədə əsasən, "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlara malik şəxslər üçün viza tələbinin qarşılıqlı aradan qaldırılması haqqında" 2021-ci il oktyabrın 11-də Belqrad şəhərində imzalanmış Saziş təsdiq edilir.

# Prezident məmurlara yenə xəbərdarlıq etdi

"Böyük vəzifə böyük imtiyaz deyil, böyük məsuliyyətdir"



İlham Əliyev: "Tanışlıq, qohumluq əlaqələri tamamilə aradan qaldırılmalıdır"

**"İcra başçısı bütün kəndlərə getməlidir, insanlarla görüşməlidir". Bunu Prezident İlham Əliyev yeni təyin olunmuş icra başçılarını videoformatda qəbul edən zaman bildirib.**

Dövlət başçısı bildirib ki, əgər hər bir kəndin problemi həll olunarsa, onda demək olar ki, bütün problemlər həll olunar. Ölkə rəhbəri deyib ki, icra başçıları yerlərdə həlli mümkün olmayan problemlərlə bağlı mərkəzi icra orqanlarına müraciət etməlidirlər: "Həlli mümkün olan problemləri isə özünüz həll etməlisiniz ki, insanlar sizdən razı olsun.

(səh.2)

### İran səfirliyi bir tvit laykından belə qorxdu

Çünki İsraillə düşmənçilik onların siyasətlərinin əsasını təşkil edir

(səh.2)

### Getdikcə azğınlaşır

Normallaşma prosesi Koçaryanın qarın ağrısına çevrilir

(səh.3)

### Prokurorların işini də kompüter proqramları görəcək

Rəqəmsallaşma ən yüksək səviyyələrdə bir sıra peşələri yox edəcək

(səh.4)

### Azərbaycanda bazar institutu işləmir

Məmurlar ölkədəki bütün obyektləri ələ keçiriblər

(səh.7)

# "Şagirdlərdən telefonların yığılması müzakirə edilmir"

Emin Əmrullayev: "Videoları çəkib ictimailəşdirməklə təhsilin indiki vəziyyətini təsvir etmək doğru deyil"

**"Şagirdlərin nadinc davranışları ilə bağlı görüntüləri ictimailəşdirməyi doğru hesab etmirəm".** Bunu jurnalistlərə açıqlamasında Təhsil naziri Emin Əmrullayev deyib. O bildirib ki, gün ərzində 3-4 milyon insanın təhsillə ünsiyyəti olur, təbii ki, burada insanlar arasında müxtəlif münaqişələr yaşanır: "Bunu videoya çəkib ictimailəşdirməklə təhsilin indiki vəziyyətini təsvir etmək doğru deyil. Azərbaycanlı şagirdlər son illərdə beynəlxlaq olimpiadalarda 300-dən çox medal qazanıb.



(səh.3)

## Daha 3817 nəfər koronavirus yoluxub, 25 nəfər vəfat edib

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 3 817 yeni yoluxma faktı qeydə alınıb, 7 541 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 25 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 768 019 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 720 865 nəfər müalicə olunaraq sağalıb, 9 182 nəfər vəfat edib, aktiv xəstə sayı 37 972 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 12 451, ötən müddət ərzində isə ümumilikdə 6 459 513 test aparılıb.*

## Azərbaycanda zəlzələ oldu

**Lənkəranda zəlzələ baş verib.**

**Bu barədə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi (RSXM) məlumat yayıb.**



Bildirilib ki, yerli vaxtla saat 16:24-də Lənkəran stansiyasından 21 kilometr şimal-qərbdə, Lənkəran rayonunda maqnitudası 3, dərinliyi 19 kilometr olan zəlzələ qeydə alınıb.

*Yeraltı təkanlar hiss olunmayıb.*



### Tahir Kərimlinin hüququ savadı var, o nə etdiyini gözəl bilir

Tural Abbaslı: "Millət vəkilinə təhdid və təzyiqlər iqtidardakı hansısa məmurdan gəlib"

(səh.4)

### Manaf Ağayev heç kimdən artıq deyil

"O da başqaları kimi müraciət edərdi, kollektiv halda təşkil olunan səfərlərə qatılardı"



(səh.5)

# Prezident məmurlara yenə xəbərdarlıq etdi

## “Böyük vəzifə böyük imtiyaz deyil, böyük məsuliyyətdir”



## İlham Əliyev: “Tanışlıq, qohumluq əlaqələri tamamilə aradan qaldırılmalıdır”

**“İcra başçısı bütün kəndlərə getməlidir, insanlarla görüşməlidir”. Bunu Prezident İlham Əliyev yeni təyin olunmuş icra başçılarını videoformatda qəbul edən zaman bildirib.**

Dövlət başçısı bildirib ki, əgər hər bir kəndin problemi həll olunarsa, onda demək olar ki, bütün problemlər həll olunar. Ölkə rəhbəri deyib ki, icra başçıları yerlərdə həlli mümkün olmayan problemlərlə bağlı mərkəzi icra orqanlarına müraciət etməlidir: ”Həlli mümkün olan problemləri isə özünüz həll etməlisiniz ki, insanlar sizdən razı olsun. İnsanlar sizdən razı olsalar, mən də sizin işinizdən razı olacam”.

**“Vətənpərvər insanlar, dövlətə, xalqa bağlı olan insanlar, əlbəttə ki, ön plana çıxmalıdır”**

**Prezident deyib ki, tanışlıq, qohumluq əlaqələri tamamilə aradan qaldırılmalıdır:** ”Bu, təkcə icra hakimiyyəti başçılarına aid deyil, bütün məmurlara aiddir. Heç kim qanundan yuxarı ola bilməz. Qanun qarşısında hamı bərabərdir. Dövlət məmurunun üzərinə düşən vəzifə və məsuliyyət onları dediyim prinsiplərə riayət etmələrinə sövq etməlidir. Əks təqdirdə onlar cəzalandırılacaq və artıq gördüyümüz işlər bunu təsdiqləyir. Böyük vəzifə böyük imtiyaz deyil, böyük məsuliyyətdir. Ona görə bu məsuliyyəti dərk edərkən siz öz addımlarınızı da bu istiqamətdə atmalısınız. Kadr sahəsində kadrların düzgün seçilməsi böyük dərəcədə işlərin uğurla getməsinə şərait yaradacaq. Ona görə kadrların seçilməsində, ilk növbədə, insanların iş qabiliyyəti nəzərə alınmalıdır, dövlətçiliyə, dövlətə sədaqət nəzərə alınmalıdır, vətənpərvərlik nəzərə alınmalıdır. Tanışlıq, qohumluq əlaqələri və hansısa başqa prinsiplər tamamilə aradan qaldırılmalıdır. Elə kadrlar seçilməlidir ki, bu kadrlar dövlət məmurları qarşısında duran vəzifələri şərəflə yerinə yetirsinlər. Eyni zamanda, qeyd etdiyim kimi, vətənpərvər insanlar, dövlətə, xalqa bağlı olan insanlar, əlbəttə ki, ön plana çıxmalıdır və kadr təyinatları aparılanda bu, nəzərə alınmalıdır”.

**“Hər bir dövlət məmuru Prezident başda olmaq şərti ilə xalqın xidmətçisidir”**

**Ölkə rəhbəri qeyd edib ki, bir çox icra başçıları cinayət məsuliyyətinə cəlb olunub:** ”Artıq bir çoxu məhkum edilib və bəzilərinin cinayət işlərinin istintaqı davam edir. Siz daim insanlarla təmasda olmalısınız, onların problemlərini onlardan eşitməlisiniz, laqeyd olmamalısınız. Yəni bütün məmurlar qarşısında mənim tərəfimdən qoyulan vəzifələr bundan ibarətdir. Çünki hər bir dövlət məmuru Prezident başda olmaq şərti ilə xalqın xidmətçisidir. Mən bunu dəfələrlə öz çıxışlarımda demişəm və icra başçılarını vəzifəyə təyin edərkən demişəm. Ancaq əfsuslar olsun ki, bəzi hallarda mənim təyin etdiyim vəzifəli şəxslər öz vəzifə borcunu yerinə yetirmək əvəzinə qanunsuz işlərlə məşğul idi, korrupsiya ilə, rüşvətxorluqla məşğul idi. Kasıb insanların malına göz dikmişdilər, dövlət tərəfindən ictimai işlərə cəlb edilən insanların maaşını mənimsəmişdilər. Bu vicdansızlıq və əxlaqsızlıq nəticəsiz qalmadı”.

**“Problemlərin həlli həm Bakıda, həm bölgələrdə ön planda olmalıdır”**

**Prezident vurğulayıb ki, bölgələrdə canlanma və inkişaf imkan verdi ki, Azərbaycanın bütün bölgələrində genişmiqyaslı işlər aparılsın:** ”Amma bu günə qədər mövcud olan problemlər də var, o cümlədən Bakı şəhərində. Bakı şəhəri gördüyümüz işlər nəticəsində dünyanın ən gözəl şəhərlərinin birinə çevrilib. Bakıya gələn qonaqlar və əlbəttə ki, yerli sakinlər bunu məmnunluqla qeyd edirlər. Ancaq əgər biz desək ki, Bakının bütün problemləri həll edilib, əlbəttə ki, səhv edərik. Bakı doğrudan da dünyanın ən gözəl şəhərlərindən biridir. Ancaq Bakının bütün yerləri heç də bu meyarlara cavab vermir. Ona görə xüsusilə inkişafa yönəlmiş addımlar Bakının hər bir guşəsində atılmalıdır. İnsanları narahat edən problemlərin həlli həm Bakıda, həm bölgələrdə ön planda olmalıdır”.

**“Mövcud problemlərə xüsusi diqqət göstərilməlidir”**

**Prezident bəyan edib ki, ilk növbədə, rayonlarda vəziyyət dərindən təhlil edilməlidir, mövcud problemlərə xüsusi diqqət göstərilməlidir:** ”Son illər ərzində ölkəmizin hər bir yerində genişmiqyaslı quruculuq-abadlıq işləri, geniş islahatlar aparılır. Bildirməliyəm ki, 2004-cü ildə qəbul edilmiş birinci Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramının və sonrakı dövrdə buna oxşar proqramların qəbul edilməsi bölgələrdə vəziyyəti böyük dərəcədə müsbətə doğru dəyişdirmişdir. Qarşıda duran əsas vəzifələr icra edildi, infrastrukturla bağlı olan məsələlər, sosial obyektlərin təmiri, tikintisi, ictimai yerlərin yaradılması, iş yerlərinin yaradılması, işsizliyin aradan qaldırılması, yəni bütün bu göstəricilər, eyni zamanda, aparıcı beynəlxalq maliyyə qurumları tərəfindən qeyd edilir və Azərbaycan ümumi inkişaf indeksinə görə inkişafda olan ölkələr arasında qabaqcıl yerlərdədir, birinci üçlükdədir. Amma bu, o demək deyil ki, biz əldə olunan nailiyyətlərlə kifayətlənək. Ölkə qarşısında hələ də problemlər var və bu problemlər həll olunmalıdır”.

**İsmayıl**



**Eldar İbrahimov Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.**

**Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.**

Elxan İbrahimov yeni təyinatadək Şamaxı Rayon İcra Hakimiyyəti Başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri vəzifəsində çalışırdı.

# Üç rayona başçı təyin edildi

## Prezident İlham Əliyev bu barədə sərəncamlar imzalayıb

Kürdəmir Rayon İcra Hakimiyyətinin əvvəlki başçısı Ceyhun Cəfərov 2020-ci ilin avqust ayının 20-də tutduğu vəzifədən azad olunub.

**Prezidentin digər sərəncamı ilə Coşqun Adil oğlu Cəbrayılov Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.**

Qeyd edək ki, C.Cəbrayılov bu təyinata qədər Bakı Şəhər İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri vəzifəsində çalışırdı.

Nizami rayonunun əvvəlki icra başçısı Arif Qasımov 2020-ci il iyulun 11-də vəzifəsindən azad edilmişdi.

**Dövlət başçısı həmçinin Elgin Şirin oğlu Həbibullayevin Bakı şəhəri Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi barədə sərəncam imzalayıb.**

Qeyd edək ki, Elgin Həbibullayev bu təyinatadək Bakı Şəhər İcra Hakimiyyətində Aparat rəhbəri vəzifəsində çalışırdı.

E.Həbibullayev Eldar Əzizov Gəncə şəhər İcra Hakimiyyətinin Başçısı işlədiyi dövrdə onun köməkçisi işləyib.

*Xatırladaq ki, prezidentin Sərəncamı ilə bu il yanvarın 19-da Abdin Ələsgər oğlu Fərzəliyev Bakı şəhəri Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.*

*Ölkə başçısının Sərəncamı ilə 2020-ci ildə Arif Adil oğlu Qasımov Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən, Ceyhun Fərrux oğlu Cəfərov Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.*

# Azərbaycan İqtisadi Şurasının növbəti iclası keçirilib



**17-18 fevral tarixlərində Baş nazir Əli Əsədovun sədrliyi ilə Azərbaycan Respublikası İqtisadi Şurasının növbəti iclası keçirilib.**

Nazirlər Kabinetindən bildirilib ki, iclasda antiinflyasiya tədbirlərinin gücləndirilməsi, ərzaq təhlükəsizliyi və ixrac üzrə aqrar sahənin inkişaf hədəfləri, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamlarından irəli gələrək ”2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın dövlət büdcəsinin vəsaitləri hesabına maliyyələşdirilməsi və büdcə qaydasının parametrlərinin müəyyən edilməsi barədə məsələlər geniş müzakirə olunub.

İclasda iqtisadiyyat naziri Mikayıl Cabbarovun, maliyyə naziri Samir Şərifovun, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin, Mərkəzi Bankın sədri Elman Rüstəmovun, kənd təsərrüfatı naziri İnam Kərimovun, Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevin, həmçinin digər dövlət komitələri və qurumlarının rəhbərlərinin məruzələri dinlənilib, müvafiq tapşırıqlar verilib.



# “Hamı qanun qarşısında bərabərdir"

## Bu deputat Manaf Ağayevin həbsinə görə DİN-ə təşəkkür etdi

**”Müğənni, müəllim və ya həkim qaydaları pozursa, dövlət qurumları qanun çərçivəsində addım atmalıdır. Hamı qanun qarşısında bərabərdir”.**

Bunu Modern.az-a deputat Fazil Mustafa işğaldan azad olunmuş ərazilərə qanunsuz səfər edən müğənni Manaf Ağayevin həbs olunmasına münasibət bildirərkən deyib.

Deputat buna görə Daxili İşlər Nazirliyinə (DİN) təşəkkür edib:

”Müğənni, müəllim, həkim və digərləri qaydanı pozursa, buna qarşı dövlət qurumları addımlar atmalıdır. Belə bir addım atıblarsa, Daxili İşlər Nazirliyinə təşəkkür etmək lazımdır. Bu, onu göstərir ki, heç kimə fərq qoymadan eyni cür davranılır. Burada narahatlığa əsas yoxdur. Hesab edirəm ki, çox düzgün yanaşma olub. Mən bunu təqdir edirəm”.

*Xatırladaq ki, müğənni Manaf Ağayevin işğaldan azad edilmiş ərazilərə səfərini əks etdirən görüntülər yayılıb. Sosial şəbəkələrdə yayılan video geniş müzakirə obyektinə çevrilib.*

*Daxili İşlər Nazirliyi dərhal araşdırma aparaq müğənnini məsuliyyətə cəlb edib. Bu gün məhkəmənin qərarı ilə Manaf Ağayev və dostu Sənan Hüseynov müvafiq icazələri olmadan işğaldan azad olunmuş ərazilərə səfər etdiklərinə görə 15 sutka həbs cəzasında məhkum olunublar.*

# İran səfirliyi bir tvit laykından belə qorxdu

## Çünki İsraillə düşmənçilik onların siyasətlərinin əsasını təşkil edir



**İranın Azərbaycandakı səfirliyinin rəsmi tviter səhifəsi İsrailin ölkəmizdəki səfirinin yazdığı bir tviti bəyənib. İsrailin Azərbaycandakı səfiri Corc Dik tviti bəyəndiyinə görə İran səfirliyinə təşəkkürünü bildirib:**

”İranın tviterdəki qadağasını tezliklə aradan qaldıracağına ümid edirik ki, iranlı həmkarlarınız da bizim tvitlərimizdən həzz ala bilsinlər!”. Lakin Dikin bu barədə tvitindən sonra İran səfirliyi ”layk”ı geri çəkib.

**Politoloq Azər Qasımov ”Şərq”ə bildirib ki, qeyd edilən fakt İran rəsmilərinin öz addımlarında nə qədər qeyri-ciddi olduğunu göstərir.** Analitikin sözlərinə görə, bir tviti belə layk etməkdə siyasət axtaran İran rəsmilərinin İran-İsrail münasibətlərində hansısa ciddi addımlar atacağı mümkün deyil: ”İran dövləti mahiyyət etibarı ilə İsrailə düşmənçilik üzərində öz siyasətini formalaşdırıb. Bu, ermənilərin ”soyqırım” iddiaları üzərində öz varlıqlarını qorumaq cəhdi kimi bir şeydir. İsrail düşmənçiliyi olmasa İran dövlət kimi daxildən parçalanar. Odur ki, İsrail ilə düşmənçilik görünüşdə İran fars rejiminin mənəvi dayağıdır. Ancaq İrandan fərqli olaraq Türkiyənin son zamanlar İsraillə əlaqələrin normallaşması üçün atılan addımları səmimi və vacib hesab etmək olar”.

**İsmayıl**

# 340 nəfəri uşaq, 18 nəfəri isə valideynlərdir

## Suriya və İraqdan gətirilənlər sosial xidmət müəssisələrinə yerləşdirilib



**“Repatriasiya prosesi başlayan zaman icraçı qurumlardan biri də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi olub”.**

APA xəbər verir ki, bunu ”Sosial saat” verilişində Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədrinin müavini Pərviz Səfərov deyib.

O bildirib ki, bu prosesdə hər bir qurumun konkret olaraq səlahiyyəti müəyyən edilib: ”ƏƏSM-in üzərinə düşən vəzifə ölkəyə repatriasiya olunmuş uşaqlara və valideynlərinə (analarına) ölkəyə gəldikdən sonra zəruri xidmətlər göstərməkdir. Onlara ilk gəldikləri vaxt Sosial Xidmətlər Agentliyinin tabeliyində olan müəssisələrdə xidmət göstərilir, daha sonra isə yerlərdə, ailələrdə onların sosial reabilitasiyası aparılır. 2018-ci ildən bu yana 358 repatrientə belə reabilitasiya xidmətləri göstərilib. Əsasən, Suriya, İraqda repatriasiya olunan uşaqlar və onların valideynlərinə sosial xidmətlər göstərilib. Onların 340 nəfəri uşaq, 18 nəfəri isə valideynləri olub. Ötən il ərzində isə 81 uşaq repatriasiya olunub. Həmin uşaqlardan 49-u bizim Agentliyin tabeliyində olan sosial xidmət müəssisələrinə yerləşdirilib. Onlar mütəxəssislərin nəzarəti altındadır. Bu proses bundan sonra da davam etdiriləcək” - o vurğulayıb.

P. Səfərov qeyd edib ki, repatriat olan şəxslərlə bağlı sosial xidmətlərin təkmilləşdirilməsi bu ilin planları sırasına daxil edilib.

# Tərtərdə yol işçiləri minaya düşüb

**Dünən Tərtər rayonunda mina partlayışı nəticəsində iki nəfər xəsarət alıb.**



Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyindən (ANAMA) ”Şərq”ə verilən xəbərə görə, partlayış minatəmizləmə əməliyyatlarının icra edilmədiyi ərazidə baş verib.

1963-cü il təvəllüdlü Alışan Səfərov Şərif oğlu və 1965-ci il təvəllüdlü Faiq Səfərov İsmayıl oğlu mina partlayışı nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Zərərçəkənlər dərhal xəstəxanaya çatdırılıb və həkim nəzarətinə götürülüblər. Onların, 42 saylı Yol istismar idarəsinin əməkdaşları olduğu müəyyən edilib.




## Çevik Polis Alayının qərargah rəisi yüksək vəzifəyə təyin edilib

**Çevik Polis Alayının qərargah rəisi, polis polkovniki Elnur Kərimov tutduğu vəzifədən azad edilib.**

Bununla bağlı daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov müvafiq əmr imzalayıb

Əmrə əsasən, o, Bakı Şəhər Baş Polis İdarəsinin İctimai Təhlükəsizlik İdarəsinin rəisi təyin edilib.

## Ərdoğanın Stoltenberqlə telefon danışığı olub

### Türkiyə-NATO əməkdaşlığı və regional məsələlər müzakirə edilib



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə NATO-nun Baş katibi Yens Stoltenberq arasında telefon danışığı olub.**

Bu barədə Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəsmi tviter hesabında məlumat verilib.

Telefon danışığı zamanı Türkiyə-NATO əməkdaşlığı və regional məsələlər müzakirə edilib.

## Putin Ukraynanı birbaşa danışıqlara çağırıb

**Kiyevin yeganə etməli olduğu şey Donbasla danışıqlar masasına əyləşməkdir.**

APA TASS-a istinadən xəbər verir ki, bu barədə Rusiya Prezidenti Vladimir Putin belaruslu həmkarı Aleksandr Lukaşenko ilə Kremldə keçirdiyi mətbuat konfransında bildirib.

Onun fikrincə, tərəflər arasında danışıqlar nə qədər tez başlasa, o qədər yaxşı olacaq.

# Getdikcə azğınlaşır

## Normallaşma prosesi Koçaryanın qarın ağrısına çevrilir



**”Ermənistanın sabiq prezidenti Robert Koçaryan yenə mətbuat konfransı keçirib, ermənilərin şüurunu kütləşdirmək üçün yeni reseptlərlə çıxış edib. Ənənəvi mövzular - Azərbaycan və Türkiyəyə qarşı yönələn ənənəvi murdar tezislər və s”.**

**Bu barədə “Şərq”ə siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, Robert Koçaryan müharibə cinayətləri, mülki insanların soyqırımı üzərindən hakimiyyətə gəlmişdi. Əli qana batmış cani iqtidar kürsüsünə çevriliş senarisi ilə yiyələnmişdi:** ”Üstəgəl, 2008-ci ilin martın 1-də xələfi Serjik Sarkisyanın saxtakarlıqla hakimiyyətə gəlişinə ”yaşıl işıq” yandırmaq üçün öz xalqına qarşı da cinayət əməlini törətmişdi. Koçaryan elə bir tarixi ləkədir ki, o, yalnız yazıçıların öz əsərlərindəki yaratdığı ən riyakar, murdar xislətli obrazlarla müqayisəyə gələ bilər. Koçaryan erməni tarixi üçün də silinməz ləkədir, dahi rus yazıçısı Mixail Bulqakovun dünyaca məşhur ”Master və Marqarita” əsərinin mənfi personajı Voland kimi çoxsimalı riyakardır. Beyin hüceyrələrini qidalandıran erməni mifologiyası onun kütləvi psixoz yaratmaq cəhdləri ilə müşayiət olunur. Bu, erməni millətçiliyinin körüklənməsi, revanşist duyğuların dirilməsinə xidmət edir. Eyni zamanda zədələnmiş nüfuzunun təmiri üçün materiallar yığmaq cəhdidir. Amma erməni cəmiyyəti o materialı Koçaryana vermir, çünki onun hansı xislət sahibi olduğunu, erməni xalqını hansı bəlalara sürüklədiyini gözəl dərk edir. Azərbaycanın 44 günlük müharibədə Ermənistan üzərində qələbəsi Koçaryanın iliyinə elə bir ”iynə” saplayıb ki, o, isterik durumunu ”cəsarətli” çıxışlar etməklə pərdələmək istəyir”.

> Amma erməni xalqı sülhdən fayda gördükdən sonra onu “dar ağacından” “asacaqlar”

**Ekspertə görə, Koçaryandan xoş addım gözləmək mənasızdır, o, getdikcə azğınlaşır, darmadağın olmuş mifi qəbirdən çıxarıb diri vəziyyətdə saxlamağa çalışır:** ”Koçaryan Azərbaycanın qələbəsindən sonra regionda yaranmış yeni reallığı beyninin həzminə vermək niyyətindən uzaqdır. Onun siyasi keçmişindəki cinayətkar, rüşvətxor, korrupsioner fəaliyyətini məhz revanşizm və millətçilik şüarları arxa plana ata bilər. Amma Koçaryan və onun kimiləri xaraktercə qorxaqdırlar. Quyruqları qapı arxasında qalanda qışqırıqları üfüqlərdə əks-səda verər və yalvararlar. Yəni ”qəhrəman” obraz birdən-birə çevrilib qorxaq olar. Koçaryan erməni xalqına bu çağırışı da edir ki, mövcud hakimiyyəti devirsinlər. Koçaryanın köhnəlmiş zehnini revanşizm ovqatında itiləməsinin isə heç bir faydası olmayacaq. İstər o, istər xələfi Serjik Sarkisyan nüfuzu dibdə sürünən, mənəviyyatları aşınan şəxslərdir. Hərçənd onların arasındakı soyuq münasibətlərin yaratdığı ”buzlar” aysberq səviyyəsinə qalxıb, amma nəticədə hər ikisi bir medalın iki üzüdür. Azərbaycanla Ermənistan arasında normallaşma belələri üçün qarın ağrısıdır, çünki erməni xalqı bu normallaşmadan fayda gördükdən sonra onları ”dar ağacına” gətirib üzlərinə tüpürdükdən sonra ”asacaqlar”. Koçaryan və Sarkisyanlar regional bəladırlar, bu bəlanın da öhdəsindən gələcəyik”.

**İsmayıl**



# "Şagirdlərdən telefonların yığılması müzakirə edilmir"

## Emin Əmrullayev: “Videoları çəkib ictimailəşdirməklə təhsilin indiki vəziyyətini təsvir etmək doğru deyil”

**”Şagirdlərin nadinc davranışları ilə bağlı görüntüləri ictimailəşdirməyi doğru hesab etmirəm”.** Bunu jurnalistlərə açıqlamasında Təhsil naziri Emin Əmrullayev deyib. O bildirib ki, gün ərzində 3-4 milyon insanın təhsillə ünsiyyəti olur, təbii ki, burada insanlar arasında müxtəlif münaqişələr yaşanır: ”Bunu videoya çəkib ictimailəşdirməklə təhsilin indiki vəziyyətini təsvir etmək doğru deyil. Azərbaycanlı şagirdlər son illərdə beynəlxlaq olimpiadalarda 300-dən çox medal qazanıb. Amma nədənsə, biz onların uğurlarını çəkib paylaşmırıq. Məncə, bizim qəhrəmanlarımız onlardır. Onları ictimailəşdirmək daha doğru olar. Nadinc, partanın üstünə çıxan uşaqlar təbii ki, problemdir. Amma bu, məktəbin daxili problemi və şagird davranışı məsələsidir. Lakin bunu gündəmin ən vacib mövzusuna çevirmək də doğru deyil”.

**“Direktorların fəaliyyəti Azərbaycan qanunvericiliyi ilə tənzimlənir”**

**Təhsil naziri direktorlarla bağlı yayılan videolara münasibət bildirib**: ”Hesab edirəm ki, mənzərə göstərildiyi qədər faciəvi deyil. Direktorların fəaliyyəti Azərbaycan qanunvericiliyi ilə tənzimlənir. Həmin videolarda bu və ya digər formada araşdırma aparılsa görünəcək ki, nöqsanlara yol vermiş direktorların hər biri işdən azad olunub. Bu mənada biz buna hətta faydalı baxırıq. Çünki ictimai nəzarətin bir forması da məhz bu cür videolardır. Mənim problemim bu tip videoların paylaşılması deyil. Bu videolar əsasında ümumiləşdirmə və təhlillərin aparılmasıdır. Təbii ki, belə videolar varsa, bizə də göndərmələri faydalı ola bilər”.

**Təhsil naziri Emin Əmrullayev bildirib ki, şagirdlərdən mobil telefonların yığılması daxili qaydalarla tənzimlənir:** ”Bunun mərkəzləşmiş bir qərarla tənzimlənməsini düzgün hesab etmirəm. Telefon müəyyən mənada şagirdə lazımdır, valideyni ilə əlaqə saxlayır. Hazırda şagirdlərin dərs prosesi zamanı telefonlarının yığılması mərkəzləşmiş qaydada müzakirə edilmir. Amma ayrı-ayrı məktəblərdə bu səlahiyyət var və icra edə bilirlərsə, mən bunu mümkün hesab edirəm”.

**“Şagirdləri də başa düşmək lazımdır...”**

**E.Əmrullayev qeyd edib ki, müəllimlərin İşə Qəbul imtahanları ilə bağlı yeni qaydalar bir məktəbdə 3 ilə qədər çalışan müəllimlərə yerdəyişmədə iştirak etməyi qadağan etmir.** Həmin şəxslər iş yerindən çıxdıqdan sonra imtahanda iştirak edə bilərlər. Nazir deyib ki, müşahidələri onu göstərir ki, hər il bir neçə min müəllim iş yerini dəyişir: ”Şagirdləri də başa düşmək lazımdır ki, hər il siniflərinə başqa bir müəllim gəlir. Təhsil Nazirliyi olaraq da həmişə birinci prioritetimiz uşaqlardır. Qeyd edim ki, biz qəti şəkildə kiməsə imtahanda iştirak etməyi qadağan etmirik. Sadəcə bildiririk ki, mövcud iş yerindən çıxdıqdan sonra həmin yerə başqa müəllim gələ bilər”. Nazir Şərqi Zəngəzur və Qarabağ regional təhsil idarələrinin harada yaradılacağına münasibət bildirib: ”Şərqi Zəngəzur və Qarabağ regional təhsil idarələrinin harada yaradılacağı Təhsil Nazirliyinin əmri ilə tənzimlənir. Lakin hələ bu barədə əmr imzalanmayıb. Bu barədə məlumat olan kimi ictimaiyyətə açıqlayacağıq”.

**İsmayıl**

# "Regionda sülh olmalı, insanlar sülh şəraitində yaşamalıdır"

## Tanınmış səyyahlar Qarabağ və Şərqi Zəngəzura səfərləri ilə bağlı mətbuat konfransı keçiriblər




**Dünən Qarabağ və Şərqi Zəngəzura səfər etmiş tanınmış xarici səyyahlar Trend İnformasiya Agentliyinin konfrans zalında mətbuat konfransı keçiriblər.**

Trend-in məlumatına görə, xarici səyyahlar azad edilmiş ərazilərə səfərləri zamanı təəssüratlarını bölüşüb, ermənilər tərəfindən orada törədilən dağıntılar və Azərbaycan hökuməti tərəfindən aparılan sürətli quruculuq işləri haqqında danışıblar.

**Səyyah Salvatore Lavallo deyib ki, Azərbaycanın azad edilmiş əraziləri ilə tanış olmaq üçün yaxşı imkanları olub:** ”Bu yerlərlə tanış olmaq üçün çox yaxşı şansımız oldu. Orada çox sürətli quruculuq işləri aparılır. Biz Ağdama səfər etdik, orada aparılan işlərlə tanış olduq. Düşünürəm ki, regionda sülh olmalı, insanlar sülh şəraitində yaşamalıdır. Qafqaz sülh regionuna çevrilməlidir. Azərbaycan bunun üçün bütün işləri görür. O yerlərdə aparılan sürətli quruculuq işləri Azərbaycanın sülh istəyini göstərir”.

**Səyyah, bloger Ranqpətç Netnapat Azərbaycana ikinci dəfə gəldiyini diqqətə çatdırıb. İxtisasının turizm olduğunu qeyd edən səyyah bildirib ki, Qarabağın çox böyük turizm potensialı var.**

”Gələcəkdə insanlar daha çox Azərbaycana gələcək, Azərbaycan gözəl turizm məkanına çevriləcək. Qarabağın da çox böyük turizm potensialı var. Qarabağda sülhün bərqərar olması turizmin inkişafına böyük imkan yaradacaq. Qarabağda bərpa, quruculuq işləri aparılır. Əlbəttə, orada dağıntılar insana çox pis təsir edir. Ancaq aparılan quruculuq işləri insanı sevindirir”, - R.Netnapat deyib.

**Səyyah Nikola Koratella bildirib ki, xüsusən Kəlbəcərin çox gözəl təbiəti var:** ”Biz bu torpaqlarda böyük dağıntılar gördük. Amma bu dağıntılarla yanaşı, böyük quruculuq, tikinti işlərini də müşahidə etdik. Yenidənqurma işlərindən sonra bu torpaqlar daha da gözəlləşəcək. Kəlbəcərdə turizmin inkişafı üçün böyük potensial var. Bu yerlər dünyadakı turistlər üçün yeni bir məkan olacaq. Yeni avtomobil və dəmir yolları o regionun inkişafı üçün böyük əhəmiyyət daşıyır”.

**Səyyah Dorde Kapraloviç isə bildirib ki, bu gözəl yerlərdə hələ heç kim yaşamır:** ”Ancaq Azərbaycan hökuməti bu ərazilərdə bərpa və quruculuq işlərinə çox böyük diqqət ayırır. Bu torpaqlarda kənd təsərrüfatı, o cümlədən bal istehsalı üçün böyük potensial var. Bu ərazilərdə kurortların yaradılması üçün gözəl yerlər var.

**”NomadMania” klubunun rəhbəri Harry Mitsidis qeyd edib ki, Azərbaycana gəlmək çox gözəl hisdir:** ”Burada insanlar çox səmimidirlər. Azərbaycan dünyanın gözəl bir guşəsidir. Ümid edirəm ki, 10 il sonra bu ərazilərə gələndə böyük otellər, ağıllı kəndlər, inkişaf etmiş iqtisadi məkanlar görəcəyik. Ümid edirəm ki, Qarabağ Avropa və Azərbaycan arasında yeni bir körpüyə çevriləcək. Daha çox insanlar Azərbaycana gələrək bu ölkəni kəşf etməlidirlər”.

*Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzura səfər dünyanın ən azı 100-dən çox ölkəsində olmuş məşhur səyyahları birləşdirən beynəlxalq ”NomadMania” klubunun təşkilatçılığı ilə keçirilib.*

*Klubun rəhbəri Harry Mitsidis səyyahların 3 gün davam etmiş səyahətdən xoş təəssüratla ayrıldıqlarını söyləyib.*

# "Aramızda nadürüst insanlar var"

## Novella Cəfəroğlu: ”Vətən müharibəsini qazandıq, amma mənəvi dəyərləri qazana bilməmişik”



**Fevralın 17-də Heydər Əliyev prospektində yük maşınları yolu bağlayıb. 4 yük avtomobilinin sürücüləri Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi Anar Rzayevə və şöbə müdiri Malik Əliyevə bu şəkildə etirazlarını bildiriblər.**

Onlar dövlət qurumundan icazə vərəqələrinin verilməsini tələb edib. Bildiriblər ki, icazə vərəqələrinin verilməməsi səbəbindən gətirdikləri malları xarab olur. Bu səbəbdən Heydər Əliyev prospektində tıxac yaranıb. TIR sürücülərinin yolu bağlaması faktı ilə əlaqədar cinayət işi başlanılıb. Onlar tıxaca səbəb olduqlarına görə üzr istəyiblər.

**Yolu bağladıqlarına görə saxlanılan sürücülərlə bağlı məsələyə münasibət bildirən hüquq müdafiəçisi Novella Cəfəroğlu ”Şərq”ə bildirib ki, sürücülər üzr istəyiblərsə, deməli, səhvlərini başa düşüblər:**

”Aramızda nadürüst insanlar var. Biz Vətən müharibəsini qazandıq, lakin mənəvi dəyərləri qazana bilməmişik. Həm əhalinin, həm də məmurların mənəvi dəyərləri yüksəldilməlidir. İnsanların bir-birilərinə hörmətlə yanaşması vacibdir. Orada yalnız həmin adamlara yox, dövlətə də zərər verildi. Əgər pozuntu halları aşkar edilirsə, o zaman qanuna uyğun olaraq cəza tətbiq edilməlidir. Mənəvi dəyərlərimizə hörmətlə yanaşdıqdan sonra biz rahatlıqla millət olduğumuzu deyə bilərik. Sürücülərin üzr istədilməsini xoş qarşılamıram”.

**Xanlar Əlibəy**

## Artıq ABŞ Kremlə qarşı sanksiyalar paketini qəbul edib

**ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays Rusiyanın danışıqlar aparmaq təklifinə müsbət cavab verdiyini deyib. Onun sözlərinə görə, gələn həftənin sonunda Rusiya XİN başçısı Sergey Lavrovla Amerikanın dövlət katibi Entoni Blinken Avropada görüşəcək:**

”Biz Rusiyanın Ukraynanı işğal etməyəcəyi şərti ilə razılaşdıq. Əgər yaxın günlərdə işğal etsələr, məlum olacaq ki, onlar heç vaxt diplomatiyaya ciddi yanaşmayıblar”.

Xatırladaq ki, iki gündür Ukraynanın Donbass əyalətində lokal döyüşlər baş verməkdədir. Fevralın 17-dən etibarən separatçılar Ukrayna silahlı qüvvələrinin mövqelərini atəşə tuturlar. Amerika Prezidenti Cozef Bayden Rusiyanın bir neçə gün ərzində Ukraynaya hücum edəcəyini deyib. Bayden müharibə riskinin çox yüksək olduğunu söyləyib. Ukraynanın NATO-dakı missiyasının rəhbəri Natalya Qalibarenko da bildirib ki, separatçılar Rusiyanın hücumu üçün zəmin yaradır. Onun sözlərinə görə, Ukrayna silahlı qüvvələrinin mövqelərinin atəşə tutulması Rusiyanın hücum üçün bəhanə axtardığını göstərir: ”Ötən gün təkcə Stanitsa Luqansk deyil, eyni zamanda Marinka və Troitskoe də atəşə tutulub. Təəssüflər olsun ki, Rusiyanın Ukraynanın vəziyyəti gərginləşdirməsi bəhanəsi ilə hücuma keçəcəyi barədə proqnozlar özünü doğruldur”. Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının rəhbəri Aleksey Danilov da qeyd edib ki, Moskva Kiyevə qarşı təxribatlara başlayıb: ”Ukrayna hakimiyyəti bu gün dövlətə qarşı genişmiqyaslı əməliyyat təhlükəsi görmür, lakin Rusiyanın təxribatlarını qeydə alır”.

# Qərb geri çəkilməyib

## Rusiya-Ukrayna qarşıdurması növbəti mərhələyə qədəm qoyur



**Ukrayna ətrafında cərəyan edənləri ”Şərq”ə dəyərləndirən politoloq Məhəmməd Əsədullazadə deyib ki, Ukraynanın Donbass bölgəsində lokal döyüşlər Rusiyanın öz ordu birləşmələrinin bir qismini geri çəkməklə başladı. Analitikin sözlərinə görə, Rusiya 100 mindən artıq qoşunu Ukrayna sərhədlərinə yerləşdirsə də, ”işğal siyasəti” iflasa uğradı:** ”Rusiya rəhbərliyi hesab edirdi ki, Qərbin birliyi baş tutmayacaq və parçalanacaq. Amma soyuq müharibənin memarlarından olan Co Baydenin Ağ Evdə oturmasını hesaba almadılar. Bayden Avropa İttifaqını toparlayaraq Rusiyaya qarşı Qərbin vahid cəbhəsini təşkil edə bildi. Moskva belə bir koalisiyanı gözləmirdi. Qərbin geri çəkilməməsi Rusiyanın Ukraynaya güc tətbiq etməməsinə səbəb oldu. Ukraynaya genişmiqyaslı hücum ABŞ və NATO qarşıdurması deməkdir. Bu isə Rusiya iqtisadiyyatının tamamilə məhv olması anlamına gəlir. Rusiya qoşunlarını sərhəddən geri çəksə də, Donbassda separatçılar vasitəsilə Ukraynaya qarşı artilleriya zərbələri endirdi. Əgər Ukrayna öz ərazilərini işğaldan azad etməyə başlasa, Moskva dərhal separatçıların ”müstəqilliyini” tanıyacaq. Rusiya növbəti dəfə Qərblə danışıqlarda öz təkliflərinin qəbul edilməsinə nail olmağa çalışacaq. Donbassda gərginlik isə səngiməyəcək. Artıq ABŞ Rusiyaya qarşı növbəti sanksiyalar paketini qəbul etdi. Bununla tərəflərin siyasi-hərbi qarşıdurması növbəti mərhələyə keçir”.

**İsmayıl Qocayev**

# Vətən müharibəsi iştirakçılarının işlə təmin olunması bir nömrəli vəzifədir

## Dövlət başçısının mesajı bütün yerli icra hakimiyyəti orqanlarına aiddir



**“Vətən müharibəsində öz canını fəda etməyə hazır olan gənclərimiz işlə təmin edilsin”.**

**Bunu Prezident İlham Əliyev fevralın 18-də icra başçılarının təyinatı ilə əlaqədar videoformat şəklində keçirdiyi görüşdə deyib.**

Dövlət başçısı bildirib:

”Kadr sahəsində kadrların düzgün seçilməsi böyük dərəcədə işlərin uğurla getməsinə şərait yaradacaq. Ona görə kadrların seçilməsində, ilk növbədə, insanların iş qabiliyyəti nəzərə alınmalıdır, dövlətçiliyə, dövlətə sədaqət nəzərə alınmalıdır, vətənpərvərlik nəzərə alınmalıdır. Tanışlıq, qohumluq əlaqələri və hansısa başqa prinsiplər tamamilə aradan qaldırılmalıdır. Elə kadrlar seçilməlidir ki, bu kadrlar dövlət məmurları qarşısında duran vəzifələri şərəflə yerinə yetirsinlər. Eyni zamanda, qeyd etdiyim kimi, vətənpərvər insanlar, dövlətə, xalqa bağlı olan insanlar, əlbəttə ki, ön plana çıxmalıdır və kadr təyinatları aparılanda bu, nəzərə alınmalıdır.

Vətən müharibəsində qəhrəmanlıq göstərmiş övladlarımızın məşğulluq məsələləri də mənim göstərişimlə öz həllini tapır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu sahədə genişmiqyaslı işlər görür - Məşğulluq Marafonu keçirilir. Mənim tərəfimdən sahibkarlara tövsiyə edilib ki, işə qəbulda, ilk növbədə, Vətən müharibəsində fərqlənmiş gənclərimizi nəzərə alsınlar. Əlbəttə ki, dövlət qurumları qarşısında bu vəzifəni mən qoymuşam. Siz də bu amili nəzərə almalısınız ki, öz canını fəda etməyə hazır olan gənclərimiz işlə təmin edilsin. Onların peşə qabiliyyətinin təkmilləşdirilməsi üçün müxtəlif tədbirlər görülməlidir. Yəni, biz onları gələcək fəaliyyətə hazırlamalıyıq. Bir daha qeyd etmək istəyirəm ki, kadr məsələlərinin düzgün təşkilində əsas prinsiplər, bax, dediyim iş qabiliyyəti, vətənpərvərlik və dövlətçilik əsasları olmalıdır”.

**Müharibə iştirakçılarının məşğulluğunun təmin olunması istiqamətində aparılan işlərlə bağlı ”Şərq”ə danışan Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov hazırda bu sahədə müəyyən işlərin görüldüyünü bildirib.**

”Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən xüsusi marafon keçirilir. Onlar hər ay nəticələrlə bağlı ictimaiyyətə hesabat verirlər. Orada nə qədər müharibə iştirakçısının işlə təmin olunduğu qeyd olunur. Birinci Qarabağ müharibəsində iştirak edib hələ əmək qabiliyyətli olanlar da var. Bu, onlara da aiddir. Eyni zamanda şəhid ailələrinin də məşğulluğu təmin olunmalıdır.

Amma hər təklif olunan iş qəbul oluna bilmir. Vətən müharibəsi iştirakçılarının içərisində sağlamlığını itirib əllilik dərəcəsi almış insanlar var. Onlar üçün hər iş münasib deyil. Buna görə bəzən problemlər yaranıb. Yerli icra hakimiyyəti orqanları bir çox hallarda bu problemləri həll etməyə yetərincə səy göstərmirlər. Ancaq hamısına aid deyil.

**Sahib Məmmədov eyni zamanda qeyd etdi ki, məşğulluğu tam təmin olunmayanlar da olur:** ”Ona görə də bu məsələ prezidentin diqqətindədir. Hələ müharibə dövründə qazilərlə görüşdə dövlət başçısı bildirmişdi ki, ”mən həmişə sizin yanınızdayam”. Eyni zamanda birinci vitse-prezident onlara müraciət edərək, ”siz mənim qardaşlarımsınız”, demişdi. Yəni bu problemlər ölkə başçısının və birinci vitse-prezidentin diqqət mərkəzindədir. Ədalət naminə deməliyik ki, bu sahədə xeyli işlər görülüb.

Amma məşğulluğu tam təmin olunmayanlar da olur. Mənə bir neçə dəfə qazilər müraciət edərək bildiriblər ki, onlar davamlı məşğul deyillər. Bu məlumatlar prezidentə də verilir. Ona görə də bu tapşırıq bütün yerli icra hakimiyyəti orqanlarına aiddir. Onlar da bu məsələdə daha diqqətli olmalıdırlar”.

**Sənan İsmayıl**



# Müdafiə Nazirliyində həbs dalğası genişlənəcək

## Maliyyə pozuntularının aşkarlanması həm də orduda aparılan islahatların nəticəsidir



**Müdafiə Nazirliyində aşkarlanan maliyyə pozuntuları ilə bağlı daha bir hərbçi - Hərbi Hava Qüvvələrinin maliyyə xidmətinin sabiq rəisi, polkovnik Cəlal Kazımov həbs edilib. Hazırda istintaq tədbirləri davam etdirilir.**

Qeyd edək ki, bir neçə gün əvvəl də Müdafiə Nazirliyində həyata keçirilən əməliyyat zamanı qeydə alınan maliyyə pozuntuları ilə Maliyyə İdarəsinin rəisi Rafael Xəlilov,”N” hərbi hissənin maliyyə şöbəsinin rəisi Fəzail Əliyev, Quru Qoşunların maliyyə idarəsinin rəisi Bayram Bayramov və maliyyə idarəsinin zabiti Əlizadə Vüsal Ədalət oğlu həbs ediliblər. Ümumi zərərin 10 milyon manatdan çox olduğu bildirilir.

**Hazırda Azərbaycan Ordusunda islahatlar getdiyini deyən ehtiyatda olan polkovnik Şair Ramaldanov ”Şərq”ə bildirib ki, ortaya çıxan nöqsanlar araşdırılır:** ”Bu cür maliyyə pozuntularının aşkarlanması da həmin islahatların nəticəsidir. Hazırda məsələyə çox ciddi yanaşırlar. Belə əməliyyat tədbirlərinin dairəsi getdikcə genişlənəcək”.

**Ş.Ramaldanov vəzifə səlahiyyətlərindən istifadə edib cinayət tərkibli əməllər törədən şəxslərin qanun qarşısında cavab verəcəyini diqqətə çatdırıb:** ”Bu da öz növbəsində gələcəkdə belə iyrənc əməllərə əl atmaq istəyən şəxslərə dərs olacaq. Onlar qanun pozuntusu törədən hər kəsin gec-tez qanun qarşısında cavab verəcəyini başa düşəcəklər”.

Polkovnik islahatların aparılmasının vacibliyini vurğulayıb: ”Müdafiə Nazirliyi kimi müharibədən çıxmış bir hörmətli qurumda belə əməllər törədən bu ünsürlərin olması bizdə təəssüf doğurur”.

**Günəş Mərd**



# Tahir Kərimlinin hüququ savadı var, o nə etdiyini gözəl bilir

## Tural Abbaslı: “Millət vəkilinə təhdid və təzyiqlər iqtidardakı hansısa məmurdan gəlib”

**Millət vəkili, Vəhdət Partiyasının sədr müavini Tahir Kərimli onu hədələyənlərə cavab olaraq sosial şəbəkədə paylaşdığı ”əjdaha” videosu ilə ciddi səs-küyə səbəb oldu.**

Ölüm təhdidi ilə üzbəüz qaldığını açıqlayan parlamentarinin qeyri-adi davranışı cəmiyyətdə birmənalı qarşılanmasa da, deputatın hədələnməsi bir sıra məsələləri də gündəmə gətirdi. Xatırladaq ki, millət vəkili evə dönərkən qapısından asılı vəziyyətdə üzərinə onu təhdid edən fikirlər yazılmış kiçik vərəq görüb. Bundan sonra həmin şəxslərə cavab olaraq video çəkmək qərarına gəlib. Videoda əlində olan oyuncaq əjdahanı göstərməklə onu hədələyən şəxslərə mesaj göndərib. Hədə məktubunda deputatın adını açıqlamadığı bir şəxsin onu ”əjdaha kimi udacağı” yazılıb. Deputat qeyd edib ki, əlindəki əjdaha simvolik məsələ idi: ”Ola bilər, mənə qarşı bunu təşkil edən parlamentdə çıxışımda əjdahaya bənzətdiyim həmin rüşvətxorlar, korrupsionerlərdən biridir”.

**İki gündür gündəmin əsas müzakirə mövzusuna çevrilən məsələni ”Şərq”ə dəyərləndirən AĞ Partiya sədri Tural Abbaslı deyib ki, cəmiyyətdə qeyri-ciddi formada müzakirə mövzusuna çevrilən məsələ deputat Tahir Kərimlinin təhdidə məruz qalması yox, yaydığı video-görüntünün forması ilə bağlı idi. Partiya rəhbərinin sözlərinə görə, çoxları ilk başda söhbətin nədən getdiyini, Tahir müəllimin nə dediyini anlamaqda çətinlik çəkdi:** ”Deputat çıxışı zamanı əlində dinozavr tutmuşdu. Yəni, çox emosional və qəribə müraciət forması idi. Tahir Kərimlinin statusunu, yaşını, keçmişini nəzərə alanlar bu cür videonu ona yaraşdırmırdı. Amma təbii ki, məsələnin başqa tərəfləri var. Millət vəkili, partiya sədri etiraf edir ki, ona açıq təhdidlər edilir və hədələrə bu formada cavab verir. Videodan sonra DİN rəsmisi bildirdi ki, millət vəkili rəsmi şəkildə hüquq-mühafizə orqanlarına müraciət etməyib. Tahir Kərimlinin hüquqi savadı kifayət qədərdir. Ali Məhkəmənin keçmiş sədri kimi öz hüquqlarını gözəl bilir. Görünür, Tahir Kərimli təhdidlərdən dərhal sonra polisə müraciət etməyi yox, məsələni ictimailəşdirməyi məsləhət bilib. Deməli, Tahir müəllimə təhdid və təzyiqlər iqtidardakı hansısa məmurdan gəlib. Deputat çıxışında Ramiz Mehdiyevi kəskin tənqid etmədiyini, normal ifadələr söylədiyini də vurğuladı. Tahir Kərimlinin birbaşa Ramiz Mehdiyevin adını çəkməsi maraqlı nüansdır. Deputat tənqidi çıxışlardan sonra təhdidlərə məruz qaldığını deyir. Tahir müəllim kriminal aləmi tənqid etmirdi ki, həmin aləmin nümayəndəsinin hədəsinə tuş gəlsin?! Onun tənqid hədəfində dövlət qurumları var idi. Hər halda deputatın işarə vurduğu məqamlar üzərində ciddi düşünməliyik”.

**İsmayıl Qocayev**

# Ziya Məmmədovun ölüm saçan "icadı"

## Qəzalar göstərir ki, yollardakı dəmir arakəsmələr yubanmadan götürülməlidir





**Uzun müddətdir ki, yollardakı dəmir arakəsmələr sürücülərin, eləcə də əhalinin narazılığına səbəb olur. Xüsusilə Bakının magistral yollarında belə arakəsmələrə çox rast gəlinir. Bu arakəsmələr qəzalara səbəb olmaqla yanaşı, həmin qəzalarda insanların həyatı üçün təhlükə riskini daha da artırır.**

Ötən gün Bakı-Quba yolunda baş verən qəzada da ”Mercedes-Benz E320” markalı avtomobil idarəetməni itirib və metal konstruksiyalı arakəsməyə dəyərək nəqliyyat vasitəsini aşırıb.

Baş Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi, polis polkovnik-leytenantı Namidan Piriyevin verdiyi açıqlamaya görə, avtomobilin içərisində olan 3 şəxs həyatını itirib. O bildirib ki, qəza nəticəsində sürücü S.Əliyev və sərnişinləri - həyat yoldaşı 1999-cu il təvəllüdlü Ələkbərova Fidan Mövsüm qızı və övladı 2021-ci il təvəllüdlü Əliyev Həmzə Seymur oğlu ölüblər.

**Sözügedən dəmir arakəsmələrin yaratdığı təhlükələrlə bağlı ”Şərq”ə danışan nəqliyyat eksperti Elməddin Muradlı bildirib ki, bu arakəsmələr heç bir əhəmiyyətə malik deyil:**

”Dəmir konstruksiyalar artıq ölüm mənbəyinə çevrilib. Belə demək mümkündürsə, dəmir arakəsmələrin yol hərəkəti təhlükəsizliyi ilə bağlı hər hansı bir rolu yoxdur. Baş verən hadisələr və onların görüntüləri göstərir ki, onlar heç bir əhəmiyyətə malik deyil. Bu dəmirlərin yığışdırılması prosesi gedir. Keçmiş Nəqliyyat naziri Ziya Məmmədov hardansa bunları tapıb gətirdi, yeyinti mənbəyi olaraq üzə çıxardı. Onun da fəsadlarını bu gün insanlar yaşayır. Ziya Məmmədov belə təqdim etmişdi ki, bu arakəsmələri alman mühəndisləri quracaq. Bildirmişdi ki, bu, elə bir texnologiya olacaq ki, avtomobil dəmirlərə toxunduqda onu geriyə itələyəcək. Yəni elastiklik funksiyası olacaq və nəticədə qəza zamanı ölüm riski olmayacaq və s. O, bunları vəd verdi və texnologiyanı qurmağa başladı. Amma çox qısa müddətdə baş verən qəzalar göstərdi ki, Nəqliyyat Nazirliyi onları texnoloji qaydalara əməl etmədən qurub. Onun da ağır fəsadları bu gün baş verməkdədir”.

Ekspert arakəsmələrin dəyişdirilməsi prosesinin davam etdiyini vurğulayıb:

”Bu baxımdan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tamamilə doğru addım atır. Artıq bir çox yollarda arakəsmələr betonla əvəz olunub. Çünki onlar texnoloji cəhətdən sıfır səviyyəsindədir, heç bir effekti yoxdur. Əksinə, daha təhlükəlidir. Maşına dəyirsə, qırılır və maşın yoldan kənara aşır. Eyni zamanda maşından içəri daxil olub salondakı sürücü və sərnişinlərə daha ağır zərər yetirir. Ona görə də bu təhlükəni daha tez aradan qaldırmaq lazımdır”.

**E.Muradlı Bakı-Quba yolundakı vəziyyətə də toxunub:**

”Bakı-Quba yolu niyə qalıb? Çünki bu yol get-gedə bərbad vəziyyətə düşür. Orada əsaslı təmirə ehtiyac var. Yəqin ki, təmirdən sonra orada da beton arakəsmələri görəcəyik. Amma yaxşı olardı ki, təmiri gözləsinlər. Vaxtında beton arakəsmələr qoysunlar, bunları da elə tətbiq etmək lazımdır ki, avtomobil ora toxunduqda bir elastiklik yaransın, aşıb əks istiqamətə çıxmasın, dərəyə aşmasın.

Dünyada bu texnoloji yenilikləri tətbiq edən böyük dövlətlər var. Onların təcrübələrini öyrənmək lazımdır”.

**Çimnaz Şahlar**



**Osman Gündüz:**
“Bu istiqamətdə ölkəmizdə ciddi tədqiqatlar aparılmalıdır, xarici təcrübə öyrənilməlidir”

# Prokurorların işini də kompüter proqramları görəcək

## Rəqəmsallaşma ən yüksək səviyyələrdə bir sıra peşələri yox edəcək

**”Çoxları elə düşünür ki, yaxın gələcəkdə yox olacaq peşələr daha çox xidmət, nəqliyyat, məişət xidməti və s. sahələrlə əlaqəli olacaq. Yəni elə təəssürat yaranır ki, yalnız bu sektorlarda işləri robotlar və kompüter tətbiqləri, süni intellekt həlləri və s. icra edəcək”.**

Bu barədə ”Multimedia” İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin rəhbəri Osman Gündüz deyib. Ekspert bildirib ki, dünyada baş verən tendensiyaları izlədikdə görürük ki, məsələ daha ciddidir: ”Süni intellekt və rəqəmsallaşma, böyük dataların analizi və emalı əsasında formalaşan rəqəmsal həllər ən yüksək səviyyələrdə bir sıra peşələri yox etməkdədir. Məsələn, bəzi ölkələrdə artıq cinayət işlərinə baxılması prosesində süni intellekt həllərindən istifadə olunmağa başlanıb. Yəni prokurorun işini artıq hansısa bir kompüter proqramı icra edir. Robot-prokuror cinayətkar haqqında toplanan data əsasında, minlərlə parametrləri bir anda analiz etməklə qərar qəbul edir. Ümumiyyətlə, müşahidələr göstərir ki, bir çox ölkələrdə son zamanlar dövlət sektorunda korrupsiyanın qarşısının alınması və effektivliyin artırılması üçün də süni intellektdən istifadə getdikcə güclənir. Xatırlayıram, Ukraynada nə vaxtsa cinayət törətmiş şəxslərin yenidən cinayət törətmə ehtimalını müəyyən etmək üçün ”Kassandra” adlanan süni intellekt həlli yaradıblar. Bu isə o deməkdir ki, ədliyyə sistemindəki peşələrə də süni intellekt və rəqəmsallaşma ciddi təsir göstərəcək”.



**O.Gündüz qeyd edib ki, zamanla aradan qalxacaq və yeni tələbat yaranacaq peşələrlə bağlı çağırış olduqca aktualdır:** ”Bu istiqamətdə ölkəmizdə ciddi tədqiqatlar aparılmalıdır, xarici təcrübə öyrənilməlidir. Bu tendensiyanı ciddi olaraq izləmək lazımdır. Əgər zamanında bu sahədə beynəlxalq tələbləri nəzərə almadan işlər görməsək, kadrlar hazırlamasaq, peşəkar formada ixtisasartırma və s. təşkil olunmasa, bizi gələcəkdə daha ciddi problemlər gözləyəcək. Bir yandan işsizliyin artması, digər tərəfdən yeni çağırışlara uyğun kadrların tapılmaması qarşıdakı illərdə həllini gözləyən əsas problemlərdən olacaq. Əsas diqqət isə bütün sahələrin rəqəmsal transformasiyasından keçir. Yəni gələcəkdə seçiləcək istənilən peşə üçün İT əsas rol oynayacaq, istənilən peşə sahəsi, mütləq olaraq İT və kompüter sahəsi ilə bağlı olacaq. Odur ki, ölkəmizdə bu sahənin inkişafına, bütün sektorlarda rəqəmsal transformasiyaya, universitetlərin rəqəmsallaşmasına və müasir tələblərə uyğun kadrlar hazırlamasına diqqəti artırmaq lazımdır. Dövlət bu sahəyə daha çox resurslar ayırmalıdır”.

**İsmayıl Qocayev**



# ABŞ-ın əsas hədəfi bəllidir

## Vaşinqton çalışır ki, Rusiya Ukrayna ilə qısamüddətli olsa da müharibəyə başlasın

**ABŞ Prezidenti Co Bayden çıxışı zamanı bildirib ki, hazırda Rusiyanın Ukrayna ərazilərini işğal etmək təhlükəsi olduqca yüksəkdir. Onun sözlərinə görə, hər şey Rusiyanın yaxın günlərdə Ukraynaya girməyə hazırlaşdığını göstərir. Bayden həmçinin böhranın diplomatik yolla nizamlanması imkanlarının qaldığını qeyd edib.**

*Siyasi şərhçi Elçin Xalidbəyli Ukrayna böhranının hazırkı durumunu "Şərq"ə dəyərləndirib. O qeyd edib ki, indi ABŞ və NATO Ukrayna böhranı üzərindən Rusiya ilə hərbi-siyasi savaş içərisindədir:* "Hazırda həm ABŞ, həm də Rusiya dərin böhran yaşayır, hətta böyük sürətlə süquta uğrama mərhələsinə yaxınlaşırlar. Belə nəhəng dövlətlər öz mövcudluqları ilə bağlı ciddi təhlükələrlə üzləşəndə bir qayda olaraq, əsas beynəlxalq düşmənlər üzərində böyük qələbələrə ehtiyac duyurlar. İndi həm ABŞ-a, həm də Rusiyaya belə böyük qələbə lazımdır. Hər iki superdövlət daxildə başlamış dağılma proseslərini ləngitmək üçün beynəlxalq düşmənə qarşı birləşməyin vacibliyini öz cəmiyyətlərinə qəbul etdirməyə çalışırlar".

Analitikə görə, Ukrayna böhranı böyük ehtimalla ABŞ və ya Rusiyanın qələbəsinə qədər müxtəlif intensivlikdə davam edə bilər: "Ağ Ev hazırda Rusiyaya qarşı beynəlxalq hərbi-siyasi təzyiq kampaniyası başladıb. Rusiya isə ABŞ-ın bu təzyiq kampaniyası qarşısında duruş gətirməkdə çətinlik çəkir. ABŞ-ın əsas hədəfi ondan ibarətdir ki, Rusiya Ukrayna ilə mütləq qısamüddətli də olsa, müharibəyə başlasın. Bu halda, ABŞ və onun müttəfiqləri Rusiyanı beynəlxalq məkandan təcrid etmək, dağıdıcı sanksiyalara məruz qoymaq üçün real bəhanələr qazanmış olacaq. Bu bəhanələr Rusiyanı beynəlxalq sanksiyalar ilə zəiflədərək öz sərhədləri içərisinə qapatmaq üçün vacibdir. ABŞ buna nail olarsa, Rusiyanın dünya nəhəngləri sırasından silinməsi baş tuta bilər. Təbii ki, Kreml də bunu bildiyindən geri çəkilmək istəmir. ABŞ və NATO-ya müqavimət göstərməyə çalışır".

*"Bu halda, ABŞ və onun müttəfiqləri Rusiyanı beynəlxalq məkandan təcrid etmək, dağıdıcı sanksiyalara məruz qoymaq üçün real bəhanələr qazanmış olacaq"*

**E.Xalidbəylinin fikrincə, rəsmi Moskva ABŞ və NATO-nun Rusiya ilə birbaşa silahlı toqquşma təhlükəsindən yayınmağa üstünlük verməsindən istifadə edərək Ukraynaya qarşı hərbi təhdidləri artırır:** "O, ABŞ və NATO-nu real hərbi toqquşma təhlükəsi qarşısında buraxaraq onun tamamilə geri çəkilməsinə çalışır. Yəni Kreml ABŞ və Qərbi birmənalı şəkildə siyasi-diplomatik masaya oturtmağa, danışıqlar prosesində öz şərtlərini diktə etmək şansı qazanmağa can atır".

*Siyasi şərhçi hazırkı vəziyyətdə Ukrayna böhranının siyasi-diplomatik yolla həllinin mümkün görünmədiyini diqqətə çatdırıb:* "Çünki hətta Rusiya tamamilə geri çəkilmək məcburiyyətində qalsa belə, böyük ehtimalla ABŞ və Qərb müasir hərbi texnika ilə silahlandırdığı Ukraynanı Donbassa hücum etməyə yönəldəcək. Bundan sonra isə Rusiyanın ilhaq etdiyi Krım yarımadasına hücum ehtimalı aktuallaşacaq. Yəni ABŞ və Qərb Rusiyanın Ukrayna böhranı ətrafında yaranmış hərbi-siyasi qarşıdurmadan uzaqlaşmasına imkan verməyəcək. Rusiyanın tam zəifləməsi, öz sərhədləri içərisinə sıxışdırılmasına qədər bu qarşıdurma davam edəcək".

**Günəş Mərd**

# Manaf Ağayev heç kimdən artıq deyil

## "O da başqaları kimi müraciət edərdi, kollektiv halda təşkil olunan səfərlərə qatılardı"

**İşğaldan azad edilən Füzuli rayonuna qanunsuz səfər edən müğənni Manaf Ağayev və onunla birgə olan iş adamı Sənan Hüseynov həbs edildi. Daxili İşlər Nazirliyinin məlumatında bildirilir ki, bu şəxslər barəsində tərtib edilən protokollar məhkəməyə göndərilib.**



*"Kim olursa olsun, insanların özünü nümayiş etdirmək cəhdini tənqid edirəm. Amma 15 sutkalıq cəza, hesab edirəm ki, düzgün deyil"*

Yasamal Rayon Məhkəməsinin qərarı ilə Manaf Ağayev və Sənan Hüseynov hər biri 15 sutka həbs olunub. Məlumdur ki, müğənni Manaf Ağayev işğaldan azad olunan ərazilərə icazəsiz keçdiyi üçün saxlanılmışdı. Müğənninin səfərini əks etdirən videomaterial sosial şəbəkələrdə yayıldıqdan sonra faktla bağlı hüquq-mühafizə orqanları tərəfindən müvafiq araşdırma başladılıb. M.Ağayev və onunla birlikdə səfər etmiş şəxsin Bakıda olduğu müəyyən edilərək polis idarəsinə dəvət edilib. Araşdırma zamanı müəyyən olunub ki, onlar işğaldan azad edilmiş ərazilərə qanunsuz yollarla, icazəsiz səfər ediblər. Sonrası isə artıq məlumdur.

Müğənninin Vətən sevgisi hər nə qədər anlaşılan və təbii qəbul edilsə də, işğaldan azad edilmiş ərazilərə qanunsuz səfərlərin qarşısının alınması da tamamilə hüquqidir. Manaf Ağayev işğaldan azad edilmiş ərazilərə qanunsuz, icazəsiz səfərlərin qadağan olmasını bilmədir. Bilir də, şübhəsiz. Bilməmək mümkün deyil. M.Ağayev Azərbaycanda yaşayır və qanunlardan xəbərdardır. İşğaldan azad edilmiş ərazilərə icazəsiz səfərlərə qadağa da yenilik deyil. Belə olan halda M.Ağayev, eləcə də qanunsuz səfərlərə can atan bəzi vətəndaşları qadağaları pozmağa sövq edən nədir?

**Sosioloq Əhməd Qəşəmoğlu "Şərq"ə açıqlamasında qanunları pozan şəxslərin cəzalanmasını düzgün hesab etdiyini bildirdi:**

- Burada söhbət təkcə Manaf Ağayevdən getmir. Mənim Manaf Ağayevlə şəxsi tanışlığım yoxdur, ona qarşı hər hansı antipatiya da bəsləmirəm. Deyəcəyim fikirlər, sırf Manaf Ağayevə ünvanlanmış hesab edilməsin. Mən ümumiyyətlə toplumda mənəviyyata zidd davranışlar sərgiləyənləri nəzərdə tuturam. Qudurğan davranışlara qarşı cəmiyyətdə çox ciddi təpki, ictimai qınaq olmalıdır. Həm inzibati, həm də maarifləndirmə baxımından. Mən daim bu həqiqəti təkrarlayıram ki, hansı cəmiyyətdə ki mənəvi dəyərlər öndədir, o cəmiyyət özünü tənzimləyir. Amma hansı cəmiyyətdə ki maddi dəyərlər önə çıxır, o cəmiyyətlərdə balans pozulur. Bu, mənim fikrim, mənim gəldiyim qənaət deyil. Dünya filosofları, alimləri bunu deyir. Biri 2000 manata mobil telefon nömrəsi alır və bunu reklam edir, müxtəlif sosial platformalarda paylaşır. Belə adama üzr istəyirəm, ifadəyə görə, axmaq deyərlər. İnsan niyə 2000 manata nömrə almalıdır? Sadə nömrədən istifadə edəndə nə olur ki? "Alçaq"mı olur adam, yoxsulmu görünür, yoxsa nə?! Yaxud birisi az qala avtomobil qiymətinə nömrə alır. Başı xarab, həm də cılız adamlardır onlar. Bilirsiz, insanların maddiyyata önəm verməsi, cəmiyyətdə mənəvi dəyərlərin aşağılanmasının, mənəviyyatın arxa plana keçməsinin göstəricisidir. Və bu, çox təhlükəlidir. Bütün bunlar cəmiyyətdə mənəvi dəyərləri sıxışdıran amillərdir və cəmiyyətdə gərginlik yaradır. Ona görə də müştəbehliklə, mənəmmənəmliklə ciddi mübarizə aparılmalıdır. Çünki cəmiyyətdəki gərginliyin kökü bundan qaynaqlanır. Maddiyyatla gündəmdə qalmağa çalışanlar da mənəvi cəhətdən kasad insanlardır. Özlərini təsdiqin yolunu maddiyyatda görürlər. Bunlar çox nöqsanlı və ölkənin tərəqqisinə ziyan vuran haldır.

**Ə.Qəşəmoğlu qeyd etdi ki, qanun pozucularının cəzalanmasının tərəfdarıdır, lakin cəzalar törədilən əmələ adekvat olmalıdır:**

- İnsanların işğaldan azad edilmiş ərazilərə səfər etmək istəyi, xüsusilə də 28 il işğal altında qalmış torpaqlarda doğulub, boya-başa çatmış insanların doğma yurdlarını görmək, ziyarət etmək istəyi başadüşüləndir. Bütün vətəndaşlarımız, hər kəs Qarabağa səfər etmək arzusundadır. Amma müəyyən qadağa varsa, buna əməl edilməlidir. Qadağalar səbəbsiz deyil. İnsanların həyatına təhlükə yarana bilər deyə, qadağa qoyulub. Amma Qarabağa səfərlər, görürük ki, son zamanlarda intensivləşib. Avtobus marşrutları açılıb. Bəlli bir istiqamət üzrə səfərlər təşkil edilir. O yerlərdə ki, təhlükə sovuşub, ora insanların səfər etməsinə icazə verilir. Bunun üçün də müvafiq strukturların icazəsi alınmalıdır. Manaf Ağayev, yaxud da hansısa digər vətəndaşımız, əgər səfər etmək istəyirsə, bəlli orqana müraciət edib, icazə aldıqdan sonra gedə bilər. Manaf Ağayev niyə kollektiv şəkildə səfər etmir? Niyə ayrıca, məxsusi səfər edir ki?!. O da başqaları kimi müraciət edərdi, kollektiv halda təşkil olunan səfərlərə qatılardı. Kim olursa olsun, insanların özünü nümayiş etdirmək cəhdini tənqid edirəm. Amma 15 sutkalıq cəza, hesab edirəm ki, düzgün deyil. Bu şəxslərlə bağlı başqa inzibati tədbir də görülə bilərdi.

**Məlahət Rzayeva**

# İşğaldan azad edilmiş zonada yeni astronomik stansiya qurulacaq

## Stansiyanın yerinin dəqiqləşdirilməsi üçün bir il tədqiqat aparılmalı, xüsusi iqlim zonası seçilməlidir



**Gələcəkdə işğaldan azad edilmiş zonada yeni astronomik stansiya qurulacaq. Bunu AMEA Şamaxı Astrofizika Rəsədxanasının icraçı direktoru, professor Nəriman İsmayılov bildirib.**

Professor deyib ki, azad olunmuş torpaqlarda infrastruktur qurulduqdan sonra bu istiqamətdə işə başlanılacaq.

Onun sözlərinə görə, astronomik stansiyanın yerinin dəqiqləşdirilməsi üçün bir il tədqiqat aparılmalı, xüsusi iqlim zonası seçilməlidir: "Astronomik stansiyanın Kəlbəcərdə qurulacağını planlaşdırırıq. Stansiya Kəlbəcərdə hündür və əlverişli yüksəkliklərin birində qurulacaq. Çünki stansiya 3000 metrdən yüksəklikdə yerləşməlidir. Belə yüksəkliklər Kəlbəcərdə mövcuddur".

N.İsmayılov Sputnik Azərbaycana açıqlamasında bildirmişdi ki, orada müasir robot teleskopların yerləşdirilməsi, onların buradan idarə olunması, Rəsədxana ərazisində yerin kosmosdan peyk müşahidələri vasitəsilə öyrənilməsi üçün mərkəzi kosmik poliqonun yaradılması kimi məsələlər AMEA rəhbərliyi tərəfindən dəstəklənib.

Bu işlərin həyata keçirilməsi Şamaxı Astrofizika Rəsədxanasının uzaq və yaxın kosmosun tədqiqi üzrə beynəlxalq elmi mərkəzə çevrilməsində çox vacib addım olacaq.

*Xatırladaq ki, Qarabağda və ətraf rayonlarda seysmoloji tədqiqatların aparılmasını təmin etmək üçün iş planına 2021-2025-ci illərdə işğaldan azad olunmuş ərazilərimizdə 10 seysmik stansiyanın quraşdırılması məsələsi daxil edilib.*

# BMT-nin baş katibi:

## "Münaqişə region üçün fəlakət olacaq"



**BMT-nin baş katibi Antoniu Quterreş dünya liderlərinin Ukrayna ilə bağlı təmaslarını davam etdirəcəklərinə ümid edir və mümkün müharibənin fəlakətlə nəticələnəcəyinə inanır.**

Trend-in "TASS"a istinadən verdiyi məlumata görə, bunu BMT-nin baş katibinin rəsmi nümayəndəsi Stefan Cüjarrik deyib.

"Bu məsələnin həlli uzun müddət tələb etsə belə, Baş katib dünya liderlərinin danışıqları davam etdirəcəyinə inanır. Münaqişə təkcə Ukrayna əhalisi üçün deyil, bütövlükdə region üçün fəlakət olacaq. Baş katibin Avropalı və digər tərəfdaşlarla bir sıra təmasları olub", - deyə S.Cüjarrik bildirib.

# Polis əməkdaşlarına silahlı müqavimət göstərən şəxs saxlanılıb



**Fevralın 18-də, saat 18 radələrində 1979-cu il təvəllüdlü Şirvan şəhər sakini Abıyev Elnur Mətləb oğlu şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı yaşadıqları evdə arvadı 1982-ci il təvəllüdlü Abıyeva Xəyalə Cabir qızına qoşa lüləli ov tüfəngi ilə 1 dəfə atəş açaraq hadisə yerindən qaçmış, sonuncuya tibb işçiləri tərəfindən tibbi yardım göstərilməsinə baxmayaraq almış olduğu xəsarətdən xəstəxanada ölmüşdür.**

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, Elnur Abıyevin tutulaрaq istintaqa cəlb edilməsindən ötrü Şirvan Şəhər Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri zamanı E.Abıyev polis əməkdaşlarını gördükdə özündə olan qoşa lüləli ov tüfəngi ilə onlara atəş açmış, həmin vaxt polis əməkdaşları tərəfindən xidməti silah tətbiq edilməklə onun hər iki ayaq nahiyəsinə atəş açılaraq hərəkət etməsinin qarşısı alınmaqla sonuncu saxlanılmışdır. Faktla bağlı Şirvan şəhər prokurorluğunda cinayət işi başlanıb.zırda iş üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**Təhsil naziri Emin Əmrullayev son günlər təhsil müəssisələrindən yayılan videogörüntülərə münasibət bildirib. Təhsil naziri bildirib ki, məktəblərdə olan neqativ halları bu qədər şişirtmək arzuolunan deyil.**



Jurnalistlərə açıqlama verən nazir deyib ki, təhsil müəssisələrində baş verən insidentləri videoya çəkib ictimaiyyətə təqdim edərək təhsilin indiki vəziyyətini təsvir etmək doğru deyil.

"Videolar və bu tip məsələlərə gəlincə, deyə bilərəm ki, təhsil sistemi çox böyük bir sistemdir. 1 milyon 600 min şagird, 200 mindən artıq müəllim təkcə ümumtəhsil

# "Məktəblərdən video çəkib yayanlara təşəkkür etmək lazımdır"

## Kamran Əsədov: "Baş verənlərin müzakirə edilməsi kimisə narahat etməməlidir"

müəssisələrindədir. 200 mindən bir qədər az məktəbəqədər təhsil müəssisələrində olan uşaqlar, 30-40 minə yaxın orada işçilər var. Ümumilikdə, biz gün ərzində hər gün təxminən 3-4 milyona yaxın insanın təhsillə ünsiyyətini görürük. Təbii ki, bu adamların arasında hansısa münaqişələr, öz aralarında problemlər yaşanır. Bunları videoya çəkib geniş ictimaiyyətə təqdim etməklə təhsilin indiki vəziyyətini məncə təsvir etmək doğru deyil" , - nazir deyib.

O, əlavə edib ki, azərbaycanlı şagirdlər son illərdə 304 beynəlxalq olimpiadada medal qazanıb: "Amma nədənsə, biz həmin şagirdlərin videolarını çəkib sosial mediada böyük həvəslə paylaşmırıq. Onlar da azərbaycanlı şagirdlərdir və dövlətimizin adını və bayrağını ucalara qaldırıblar. Təbii ki, nadinc uşaqların, partanın üzərinə çıxan uşaqların bu davranışları problemdir. Amma bu, məktəbdaxili problemdir. Bu, şagird davranışı problemidir. İki insan arasında olan münaqişəni ölkənin ən vacib gündəminə çevirməkdə böyük bir fayda görmürəm. İnanmıram ki, bu videoların bu və digər formada, bu miqyasda və bu çapda müzakirəsi bizim cəmiyyətimizi və ölkəmizi irəli aparır. Bu videoların hansısa bir formada nümunə olmasını da uyğun hesab etmirəm".

*"Bizə bir daha isbat edirlər ki, müəllimlər öz vəzifəsini yerinə yetirə, direktorlar da nəzarət edə bilmirlər"*

Xatırladaq ki, bu gün "Təhsilə ictimai baxış" silsiləsindən "Məktəb-valideyn tərəfdaşlığı: reallıqlar və yeni yanaşmalar" mövzusunda müzakirə təşkil olunub. Nazir Emin Əmrullayev də orada iştirak edib.

**Nazirin açıqlaması ilə bağlı "Şərq"ə danışan təhsil üzrə ekspert Kamran Əsədovun sözlərinə görə, təhsil ictimai işdir və burada baş verən hadisələr müzakirə olunmalıdır:**

"Məktəblərdə təhsil alanlar ölkə ictimaiyyətinin ailə üzvləri, övladlarıdır. Əgər müəllim sinifdə şəkil çəkib paylaşaraq uğuru olaraq təqdim edirsə, deməli, uğursuzluqları da göstərmək mümkündür. Məktəbdəki neqativ halların görüntülənməsi mənfi durumların aradan qalxması və keyfiyyətin artırılmasına xidmət edən bir addımdır. Buna görə narahat olmağa dəyməz. Əksinə, təhsil prosesində iştirakçıların hərəkətləri və hərəkətsizliyindən cəmiyyətin məlumatlı olmasına imkan verməliyik. Məktəblərə kameralar quraşdıra, valideynlərlə görüşlər də təşkil edə bilərik. Yəni bu məsələdə ictimai iştirakçılıq vacibdir. Düşünmürəm ki, məktəbdə baş verənlərin müzakirə edilməsi kimisə narahat etməlidir. Bundan ancaq fəaliyyəti neqativ olan insanlar narahat ola bilər.

Təhsil ictimai işdir və burada baş verən hadisələr müzakirə olunmalıdır. Qanunlar çərçivəsində hər şey qeydə alınmalı və izlənməlidir. Bu gün baş verənlər orta ümumtəhsil müəssisələrində idarəetmə ilə bağlı boşluqlar olduğunu göstərir. Bunu çəkib yayanlara təşəkkür etmək lazımdır. Bizə bir daha isbat edirlər ki, müəllimlər öz vəzifəsini yerinə yetirə, direktorlar da nəzarət edə bilmirlər. Yəni ümumilikdə işin keyfiyyətinə müsbət təsir göstərir.

Bu videolardan narahat olanlar düzgün işləmir, onların fəaliyyəti qanunvericiliyin tələblərinə yox, öz istəklərinə uyğun qurulub. Həmin şəxslər təhsil prosesindən kənarlaşmalıdır".

**Sənan İsmayıl**

# Erməni vəhşiliyini öz gözləri ilə gördülər

## Məşhur səyyahlar Qarabağın haqq səsini dünyaya yayacaqlar

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması;**



**Fevralın 16-18-də 20 ölkədən 30-dan çox dünya şöhrətli beynəlxalq səyahətçinin Qarabağ və Şərqi Zəngəzura səfəri başa çatıb. Səfər dünya miqyaslı ”NomadMania” klubunun təşkilatçılığı ilə baş tutub. Xocalı soyqırımının 30 illiyi ərəfəsində təşkil olunan səfər proqramı Azərbaycanın mədəniyyət paytaxtı Şuşadan başlayıb.**

Daha sonra qonaqlar Ağdam, Laçın, Kəlbəcər və Zəngilana səfər ediblər. Qonaqlara əvvəlcə Şuşa qalası haqqında məlumat verilib. Bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa etdirilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub. 1992-ci ildə şəhər erməni silahlı qüvvələri tərəfindən işğal olunandan sonra Şuşa qalasının divarları erməni vandalizminə məruz qalıb. 2020-ci ildə Azərbaycan Ordusu Şuşanı işğaldan azad etdikdən sonra burada təmir-bərpa işləri aparılıb. Qonaqlar Şuşa qalasının divarları fonunda xatirə şəkilləri çəkdiriblər. Səyyahlar Şuşanın mərkəzi meydanında Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Üzeyir Hacıbəyli və Bülbülün işğal zamanı güllələnmiş büstlərini də ziyarət ediblər. Dünya şöhrətli fotoqraf Reza Deqati Birinci Qarabağ müharibəsi zamanı şahidi olduğu hadisələrdən danışıb. Şuşa şəhərinin erməni işğalından əvvəlki və sonrakı vəziyyəti haqqında səyyahlara məlumat verib. Əcnəbi səyyahlar daha sonra Yuxarı Gövhər ağa məscidində olublar. Qonaqlara məlumat verilib ki, otuz ilə yaxın sürən işğal dövründə dini abidələr, o cümlədən məscidlər erməni vandallığına məruz qalıb. Şuşa işğaldan azad olunandan sonra bu məscidlərdə təmir-bərpa işlərinə başlanılıb. Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Bülbülün Şuşa şəhərindəki ev-muzeyi də ziyarət olunub. Muzeyin fəaliyyəti və tarixi barədə qonaqlara məlumat verilib. Səfər iştirakçılarının Şuşada son dayanacağı Cıdır düzü olub. Onlar Cıdır düzündən açılan gözəl mənzərəni seyr ediblər. Əcnəbi səyyahlar Şuşa şəhəri ilə tanış olduqdan sonra fevralın 16-da Ağdama gəliblər. Heyət Ağdamda erməni işğalı və barbarlığından nisbətən salamat çıxmış yeganə tikili - Cümə məscidi ilə tanış olublar. Bildirilib ki, ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçiriblər. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib. Erməni vandalizminə məruz qalan Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən tikilib. Ermənilər məscidi hərbi məqsədlərə görə dağıtmayıb, onun minarələrindən koordinasiya üçün istifadə ediblər. Erməni vandalları Ağdam Cümə məscidində də mal-qara saxlamaqla azərbaycanlılara, müsəlman aləminə qarşı öz nifrətlərini nümayiş etdiriblər. Qonaqlar Ağdam şəhərinin dağıntılarına baxıblar. Qeyd olunub ki, Qarabağ xanı Pənahəli xan XVIII əsrdə Ağdamda ağ daşdan ev tikdirib. Ağdam şəhərinin adı da buradan götürülüb. Qədim türk dilində isə Ağdam kiçik qala mənasını daşıyır. Ağdam şəhəri Qarabağ xanlığı dövründə inkişaf edib. Ermənistanın işğalına qədər Ağdam Azərbaycanın nəinki Qarabağ bölgəsinin, ümumilikdə respublikanın ən inkişaf etmiş şəhərlərindən idi. Ağdam Azərbaycan elminə və mədəniyyətinə görkəmli şəxsiyyətlər bəxş edib. Ağdamda həm də Azərbaycan mədəniyyətinin ən vacib nümunəsi sayılan muğam geniş inkişaf edib. Qarabağ muğam məktəbinin nümayəndələri Azərbaycan xalqının musiqi mədəniyyətinin inkişafına böyük təsir göstərib. Səyyahlar qrupunu müşayiət edən məşhur fotoqraf Reza Deqati Birinci Qarabağ müharibəsi zamanı Ağdam Cümə məscidi və şəhərdə şahidi olduğu ağrı-acılı xatirələri bölüşüb, çəkdiyi fotoşəkilləri qonaqlara təqdim edib, onların suallarını da cavablandırıb. Onlara işğal müddətində yerlə yeksan olan yaşayış məntəqələri, Azərbaycanın maddi-mədəni irsinin, tarixi, dini abidələrinin ermənilər tərəfindən dağıdıldığı barədə məlumat verilib. İşğalçıların insanlıq əleyhinə cinayətlərinin izləri əyani nümayiş etdirilib. Qonaqlar ilk təəssüratlarını onları müşayiət edən jurnalistlərlə bölüşüblər. İngiltərəli Susan Patricia Rogers bildirib ki, əvvəllər Bakıda olsa da, Qarabağa ilk dəfə səfər edib. O, Qarabağ müharibəsi barədə eşitdiyini, lakin heç vaxt Qarabağa Ermənistan tərəfdən səfər etmək barədə düşünmədiyini bildirib: ”Əslində, bu səfər mənim üçün maraqlıdır, çünki Qarabağa çoxdan səfər etmək istəyirdim. Gözlədim ki, müharibə bitsin, təhlükəsizlik bərpa olunsun, sonra səfər edim. Buralar çox gözəldir, həmçinin bu qısa müddət ərzində görülən işlər, çəkilən yol, elektrik və digər işlər təqdirəlayiqdir. Lakin hələ görüləcək işlər çoxdur. Düşünürəm ki, burada quruculuq işləri tamamlandıqdan sonra mən bura yenidən səfər etməliyəm...”.

Polşadan olan səyyah Daniel Zaqrodski Şuşada qısa zamanda böyük işlər görüldüyünü qeyd edib: ”Eyni zamanda nəzərə alsaq ki, burada əhali yenidən yaşayacaq, hələ görüləcək işlər çoxdur. İlk dəfədir ki, mən televiziyada və ya ”Youtube”də deyil, öz gözlərimlə bir şəhərin müharibədə necə dağıdıldığını görürəm. Kədərli görüntüdür, lakin eyni zamanda, bu şəhərdə həyat bərpa olunur. Yolboyu gördüyüm dağıntılar sadəcə, dəhşətdir. Bir zamanlar kəndlər olduğu ərazilərdə indi heç nə qalmayıb, hər şey dağıdılıb, silinib. Mən bu yerlərin çoxlu şəkillərini çəkdim. Ağdamdakı görüntülər kədərlidir. Bura ”ruhlar şəhəri”nə çevrilib...”.

***“Dünyanın 20 ölkəsindən 30 səyyahın Qarabağa səfərinin təşkil edilməsi erməni vəhşiliyinin ifşası, Azərbaycan həqiqətlərinin təbliği baxımından çox önəmli məsələdir”***

ABŞ-dan olan səyyah Per Adrian Besson da Ağdamda gördüyü vandalizmin onu mütəəssir etdiyini deyib. O, tezliklə Ağdamda həyatın yenidən canlanacağına əmin olduğunu bildirib: ”İnanıram ki, regionda sülh olacaq, inkişaf olacaq. Hər iki ölkə problemləri danışıqlar yolu ilə həll edəcək və birlikdə sülh içərisində yaşayacaq”.

Bosniya və Herseqovinadan səyyah Milana Bojinovic də oxşar fikirləri bildirib: ”Ağdamda hər şey dağıdılıb, ancaq bir məscid salamat qalıb. Bütün bunlar təəssüfedicidir. Mənim vətənimdə də ağır müharibə olub, müharibənin dəhşətlərini bilirəm. Ümid edirəm ki, gələcəkdə hər iki ölkə mehriban qonşuluq münasibətləri yaradacaq...”.

**Millət vəkili Ceyhun Məmmədov ”Şərq”ə deyib ki, dünyanın 20 ölkəsindən 30 səyyahın Qarabağa səfərinin təşkil edilməsi erməni vəhşiliyinin ifşası, Azərbaycan həqiqətlərinin təbliği baxımından çox önəmli məsələdir. Deputatın sözlərinə görə, qarşımızda duran ən vacib məsələdən biri də erməni vəhşiliyinin ifşa olunması, dünya ictimaiyyətinə çatdırılmasıdır:** ”Ermənistan silahlılarının Qarabağda törətdikləri vandalizm aktlarının mətbuatdan öyrənilməsi ilə canlı gözlə görülməsi arasında fərq çoxdur. Səyyahların erməni vəhşilikləri ilə yerində tanış olmaları, öz gözləri ilə görmələri olduqca mühümdür. Nəzərə alaq ki, səyyahlar dünyanın bir çox ölkəsinə səfər edirlər. Onlar təmsil etdikləri ölkələrlə yanaşı, dünyanın başqa ölkələrində də Qarabağda gördüklərini təbliğ edəcəklər. Təəssüflə qeyd etmək lazımdır ki, erməni yalan maşını fasiləsiz işləyir. Hələ də Azərbaycana qarşı təbliğatlarını davam etdirirlər. Ona görə də xarici ölkə nümayəndələrinin işğaldan azad edilmiş səfərlərinin təşkili zəruridir. Erməni vəhşiliklərini xarici vətəndaşların gözü ilə dünyaya göstərməli, əcnəbi dillərdən istifadə edərək ifşa etməliyik. Dünya ictimaiyyəti erməniləri yaxından tanımalı, onların yalanlarına aldanmamalıdır”.

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Qadağan etmək hüquq pozuntusudur

## Kimsə ictimai yerdə aparılan çəkilişə müdaxilə edə bilməz

**Hüquq müdafiəçiləri Rüfət Səfərov və Zaur Əkbərin Nərimanov Rayon Polis İdarəsinin ərazisində polislər tərəfindən şiddətə məruz qaldıqları barədə iddia əsassızdır.**

DİN Mətbuat xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov Trend-in sorğusuna cavab olaraq yayılan məlumatların əsassız olduğunu deyib. ”Onlar Nərimanov Rayon Polis İdarəsinin ərazisində çəkiliş ediblər, onlara xəbərdarlıq edilib ki, çəkiliş etməsinlər. Orada heç kim döyülməyib, sadəcə deyiblər ki, çəkiliş aparmayın. Rüfət Səfərovla əlaqə saxladım, o da anlayışla qarşıladı. Çox təəssüf olsun ki, bəziləri sürücülərin bu hərəkətindən öz siyasi məqsədləri üçün suiistifadə etməyə cəhd edirlər” -deyə E. Zahidov bildirib.

Qeyd edək ki, bəzi məkanlarda video, foto çəkilişlərin qadağan edilməsi halları mövcuddur. Məsələn, metropoliten ərazisində çəkilişlərin qadağan olunduğunu bildirən xüsusi xəbərdarlıq elanları var. Eləcə də hərbi hissələr ərazisində və bu kimi digər yerlərdə. Bəs hansı ərazilərdə çəkiliş aparılması sərbəstdir və vətəndaşa müdaxilə edilməməlidir?

**Hüquqşünas Ələsgər Məmmədli ”Şərq”ə açıqlamasında ictimai yerlərdə çəkiliş aparılmasına heç bir qadağa olmadığını dedi:**

- Hüquq müdafiəçilərinin fəaliyyətinə mane olmağın özü müdaxilədir. Hüquq müdafiəçiləri ona görə mövcuddurlar ki, hüquqları pozulanları müdafiə etsinlər. Hüquq müdafiəçisinin fəaliyyətinə mane olmaq hüquq pozuntusudur. Çəkilişlərə gəlincə, çəkiliş aparılması qanunla qadağan olunan yerlərdən savayı digər bütün ərazilərdə çəkiliş aparmaq sərbəstdir. Kimsə ictimai yerdə aparılan çəkilişə müdaxilə edə, çəkilişin dayandırılmasını tələb edə bilməz. Cəmiyyətdə ictimai diskussiya yaradan hadisə ilə bağlı çəkiliş aparmaq, cəmiyyəti məlumatlandırmaq qadağan deyil. Hüquq müdafiəçisinin və ya media mənsubunun harada çəkiliş aparması və ya informasiya verib-verməməsini DİN müəyyən etmir. Hüquq müdafiəçisi və ya jurnalistə də müdaxilə olmamalıdır. Polis İdarəsinin ərazisi də ictimai yerdir. Əgər polis idarəsinin ərazisində ”giriş qadağandır”, ”çəkiliş aparmaq qadağandır” xəbərdarlığı yoxdursa, qanun orada çəkiliş aparılmasını qadağan etmir. İnzibati binanın qarşısında, ətraf ərazidə çəkiliş aparılmasının inzibati binanın daxilində aparılan fəaliyyətə aidiyyəti yoxdur.

**Məlahət**

# 80-ci illərin fidanları belə deyildi

## İndi çox az uşaq tapılar ki, ailənin maddi sıxıntılarını anlasın

**”AzVision”nın baş redaktoru Vüsal Məmmədov ”facebook”da azyaşlı qızı ilə bağlı maraqlı paylaşım edib. Paylaşımda qeyd olunub: ”Ayla ilə kitab mağazasına getmişdik. İndi də kitab mağazaları bilirsiniz, həm də oyuncaq mağazasıdır. Ayla bir ”Barbi” götürdü. Baxdım qiymətinə: 48 manat. Mənim üçün bahadır.**

Ala bilərəm, amma kuklaya 48 manat vermək üçün psixoloji baryeri aşmalıyam. Qızım,- dedim,- bu çox bahadır e. Gəl, başqa bir şey alaq. Düzü, hadisələrin sonrakı inkişafını belə təsəvvür edirdim: Ayla əl çəkmir, mızıldayır, tələb edir, inciyir və mən sonda kuklanı alıram. Amma Ayla bir neçə saniyə fikirləşəndən sonra:- Yaxşı, ata,- deyib, sakitcə kuklanı yerinə qoydu. Həmin an buna haradasa sevinmişdim. Amma indi yadıma düşdükcə elə pis oluram ki. Uşağın yaşından qat-qat böyük tərzdə anlayış göstərərək, elə sakitcə razılaşması tam anlaya bilmədiyim əzablı bir hiss yaşadır”.

Mağazalarda uşaqların israrla valideynlərindən hansısa əşyanı, oyuncağı almağı tələb etməsinin tez-tez şahidi oluruq. Sirr deyil ki, əksər valideynlər övladlarına yox deməyi bacarmırlar. Bəs görəsən, bu cür situasiaylarda etirazla qarşılaşmaq uşaqlarda sonradan hər hansısa psixoloji pozuntu yarada bilərmi? **Uşaq psixoloqu Nuriyyə Quliyeva bu barədə ”Şərq”ə danışarkən bildirib ki, indiki dövrdə uşaqların əksəriyyəti iqtisadi vəziyyətin pis, ya da yaxşı olmasını düşünməyəcək tərzdə böyüyürlər:** ”Amma əvvəlki nəsil, 1980-ci illərin uşaqları maddi sıxıntıları daha anlayışla qarşılayırdı. İndiki uşaqlara ”yox” kəlməsini dedikdə onların əksəriyyəti bunu küskünlüklə qarşılayır, ağlayır və müəyyən emosional reaksiyalar verirlər. Nümunədə qeyd etdiyiniz balaca qızımızın ailəsi onu çox düzgün yanaşma ilə böyüdüb. O artıq indidən anlayır ki, oyuncağa veriləcək bu 48 manat evin hər hansısa bir ehtiyacının qarşılanması üçün istifadə oluna bilər. Belə uşaqlar çox diqqətcil olur və ailəsi tərəfindən ona çox insani keyfiyyətlər aşılanır”. Psixoloq indiki dövrdə ailənin maddi sıxıntılarını başa düşə biləcək uşaqların sayının kifayət qədər az olduğunu diqqətə çatdırıb: ”Çünki ailələr özləri də bəzi məsələləri düzgün qurmurlar. Onlar iqtisadi vəziyyətləri aşağı olan da uşaqlarının hər istədiyini dərhal alırlar. Mən hətta maddi imkanı yaxşı olan pasiyent valideynlərə də deyirəm ki, uşaqlar müəyyən qədər bəzi şeyləri gözləməyi bacarmalıdır. Belə olduqda uşağın özünə də daha maraqlı olur”. N.Quliyevaya görə, uşaqların hər istədiyini anında aldıqda həmin şey qısa müddətdə onlar üçün də dəyərsiz olur: ”Bu, uşaqda həm doyumsuzluq hissi yaradır, həm də ona imkan vermir ki, əldə etdiyinin dəyərini anlasın. Hər bir halda uşaqlara gözləməyi öyrətmək lazımdır”.



***Psixoloq: "Mən hətta maddi imkanı yaxşı olan pasiyent valideynlərə deyirəm ki, uşaqlarına bəzi şeyləri gözləməyi öyrətsinlər"***

**Günəş Mərd**

# "Mənim uşağımın qatili İlkindir"

## Nərminin anası: “Mən bu məhkəmənin sonunu gözləyirəm ki, görüm məhkəmədən sonra onlar başını hansı yastığa qoyacaqlar”



**”Nərmin işi” davam edərkən tərəflər bir-birinə qarşı müxtəlif iddialarla çıxış edirlər. Nərminin atası Şərif Quliyev və cinayətkar qismində həbs olunan İlkin Süleymanovun qardaşı Adil Süleymanov bizimlə öz fikirlərini və əllərində olan faktlarını bölüşmüşdülər.**

**Bu dəfə Nərminin anası Aynurə İsmayılova ”Şərq”ə danışıb. O, Adil Süleymanovun ona ünvanladığı suallara cavab verib:** ”Qarşı tərəf müxtəlif kanallarda çıxıb mənim barəmdə pis-pis danışır. Evin belədir, eşiyin belədir deyirlər. Mənim nə evim var, nə eşiyim. Mən qızımın ağzında olan dişini bilirəm. Adil getsin öz dərdini çəksin. Bu yük onların üstündədir. Bu cinayəti Adilin qardaşı edib, getsin qardaşından soruşsun. Məndən əl çəksin. Mən xəstə adamam. Mənə nə veriblər ala bilmirlər? Qoysalar, mən öz uşağımın dərdini çəkərəm. Əmisi çıxıb deyir mənim uşağım hamilə olub, bacıları deyir evim-eşiyim belədir, anası deyir öz dişlərini düzəltdirib. Adilə burdan üzümü tutub deyirəm ki, onsuz da bu yük sizin üstünüzdədir”.

**A.İsmayılova Adil bəyin Nərminin qan qrupu haqqında olan suallarına münasibət bildirib:** ”Uşağı dünyaya gətirən mənəm. Adil mənim uşağımın qan qrupunu hardan bilir? Mənim uşağım onların yanındamı olub? O vaxt uşağın qanını 4-cü qrup yazdırmışdıq. İndi Bakıda yoxlayandan sonra gördük ki, qan qrupu atası ilə eynidir, yəni 2-ci qrupdur. Onlar məhkəmədə qaynımın qabağını kəsirlər ki, gəlin düşmənimizi axtaraq. Mənim düşmənim özləridir. Mənim onlardan başqa düşmənim yoxdur ki... Onu uşağımı yandıranda fikirləşərdilər, artıq gecdir. Onlarda kişilik yoxdur. Əgər olsaydı, mənim 10 yaşlı uşağımın başına oyun açıb yandırmazdılar. Getsinlər öz dərdlərini çəksinlər. Mənim uşağımın qatilləri onlardır. Mənim əlimdə faktlarım, sübutlarım var. Onlar deyir ana susub. Xeyr, ana susmayıb. Mən bu məhkəmənin sonunu gözləyirəm ki, görüm məhkəmədən sonra onlar başını hansı yastığa qoyacaqlar. Mən dövlətimə inanıram, dövlət qatili tapıb. Mənim uşağımın qatili İlkindir. Millət də hər şeyi görür”.

**Çimnaz Şahlar**

# "Televiziyalarda sosial reklamlar olurdu, indi yoxdur"

## Musa Quliyev: "Qaz zəhərlənmələri ilə bağlı ciddi maarifləndirmə işləri aparılmalıdır"



**Qusar rayonunda bir evdən beş nəfərin meyiti tapılıb. Hadisə şəhər ərazisində qeydə alınıb.**

Olay yerinə hüquq-mühafizə orqanlarının əməkdaşları cəlb olunub.

İlkin ehtimala görə, onlar dəm qazından boğularaq ölüb.

Son zamanlarda dəm qazından zəhərlənmə faktları çoxalıb. Hətta ölüm ilə nəticələnənlər var. Bununla bağlı əhaliyə məlumatlar verilir. Sosial maarifləndirmə də aparılır. İnsanları diqqətli olmağa çağırırlar. Ancaq bu tədbirlər zəhərlənmə hallarının qarşısını ala bilmir.

**Məsələ ilə bağlı "Şərq"ə məlumat verən deputat Musa Quliyev hazırda bu məsələyə baxıldığını qeyd edib:**

"Qaz təchizatının yaxşılaşdırılması və təhlükəsizliyi ilə bağlı müəyyən tədbirlər görülməsi üçün qanunvericilikdə dəyişikliklər olunur. Zəhərlənmənin əsas səbəbi tüstü borularının vaxtında təmizlənməməsi, bacaların işlək vəziyyətdə olmaması və qızdırıcı cihazların standartlara uyğun olmamasıdır. İstər FHN, istər də qaz təchizatı ilə məşğul olan əməkdaşlar mütəmadi olaraq profilaktik yoxlamalar keçirməlidirlər. Həm fiziki, həm də hüquqi şəxslər məsuliyyət daşımalıdır. Bu, işin hüquqi və inzibati tərəfidir".

**M.Quliyev bildirib ki, maariflənmə ilə bağlı ciddi işlər görmək lazımdır:**

"Vətəndaşlarımıza hər payız fəslində daim bunu xatırlatmaq lazımdır. Bir ara televiziyalarda sosial reklamlar olurdu. İndi rast gəlmirəm. Xəbərdaredici elanlar edilməlidir ki, tüstü boruları həmişə açıq, cihazlar isə saz vəziyyətdə olmalıdır. Gecə vaxtı söndürülsə, yaxşı olar. Vətəndaşlar özləri laqeyd yanaşmamalıdır. Qızdırıcı cihazları eyvan kimi yaşayış məkanından kənarda olan yerlərdə və açıq havada qoymalıdırlar. Maarifləndirmə çox ciddi rol oynayır, nəinki inzibati cərimələr və ya hüquqi yoxlamalar".

**Cəmilə Əzim**


**Elanlar**

Səfərov Azər Əlixan oğluna məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Əsgərzadə Xalid Əliniyaz oğlunun adına Bakı şəhəri, Yeni Yasamal yaşayış massivi ünvanında inşa edilən yaşayış binası "Safari-N" MMC-yə məxsus maliyyə arayışı və mənzil tikintisi haqqında 28 saylı müqavilə itdiyi üçün etibarsız sayılır.

**"Kürdəmir-Pambıq" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə !**

2022-ci il aprel ayının 11-də saat 10.00-da cəmiyyətin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Gündəliyə çıxarılan məsələlər:

- cəmiyyətin illik balansının müzakirəsi və təsdiqi (zərər və mənfəətin bölüşdürülməsi);
- cəmiyyətin emal sahəsi üzrə gələcək fəaliyyətinin müzakirəsi və bu barədə qərar qəbul edilməsi;
- "Kürdəmir-Pambıq" ASC-nini ayrılma qaydasında yenidən təşkili və bununla bağlı təşkilati məsələlər
- sair məsələlər.

Yığıncaq cəmiyyətin yerləşdiyi Kürdəmir şəhəri, M.Ə.Sabir küçəsi, 12 nömrəli ünvanda keçiriləcək. Səhmdarların iştirakı vacibdir.

İdarə Heyəti ilə əlaqə telefonu:
(050) 233-05-05
Direktorlar şurası




## Şuşada Qarabağ xanlığı dövrünə aid yeni abidə aşkarlanıb

**Şuşada Qarabağ xanlığı dövrünə aid olan yeni abidə aşkarlanıb.**

Sputnik Azərbaycan-ın xəbərinə görə, bunu Azərbaycan Milli Elmər Akademiyasının (AMEA) Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş direktoru Abbas Seyidov "Şuşa-270: Arxelogiyası, tarixi, etnoqrafiya və antropologiyası" adlı respublika elmi konfransında çıxış edərkən deyib.

Abbas Seyidov bildirib ki, bu barədə fevralın 5-də məlumat alıblar. İnstitutun baş direktoru onu da qeyd edib ki, Şuşa şəhərində hotel binası tikilərkən oradan tikinti qalıqları aşkarlanıb:

"Təcili olaraq ora əməkdaşlarımızı ezamiyyətə göndərdik. Orada arxeoloji qazıntı işləri aparılıb. Tikinti dərhal saxlanılıb. Tədqiqat işləri zamanı məlum olub ki, orada çirkli suların axması üçün borular aşkarlanıb. Bu gün isə bizə yenidən tapşırıq verildi ki, yenə də qazıntı işləri davam etdirilsin. Həmin abidə Qarabağ xanlığının dövrünə aid olan abidədir. Gələcəkdə planlaşdırırıq ki, abidənin üstü açıldıqdan sonra orada tikilən hotelə gələn qonaqlar şüşə vasitəsilə onu görə bilsinlər".

# Kənd qonaq evləri kəndçinin də karına gələcək

## Bu, maldarlıqla məşğul ola bilməyən insanlara əlavə şərait deməkdir



**İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sədri Orxan Məmmədov Azərbaycanda kənd yerlərinin inkişafı və milli aqroturizm sisteminin yaradılması ilə bağlı keçirilən seminarda deyib ki, Azərbaycanda "Kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı" layihəsi çərçivəsində 50 sahibkarlıq subyekti yaradılacaq:**

"KOBİA tərəfdaş qurumlar ilə birlikdə turizm sektorunda layihələrin həyata keçirilməsində maraqlıdır. Ötən ilin may ayında KOBİA-nın, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin dəstəyi ilə "Kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı" layihəsi çərçivəsində İsmayıllı rayonunda 15 sahibkarlıq obyekti - kənd qonaq evi istifadəyə verilib.

Müsbət nəticələr nəzərə alınmaqla, Dövlət Məşğulluq Agentliyi və Dövlət Turizm Agentliyi ilə birgə turizm potensialı yüksək olan Quba, Qusar, Xaçmaz, Şəki, Zaqatala, Qax, Lənkəran, Astara və Lerik rayonlarında kənd turizmi sahəsində yeni təşəbbüsə start verilib. Müvafiq layihənin davamı olaraq qeyd olunan rayonlarda daha 50 sahibkarlıq subyektinin yaradılması nəzərdə tutulur".

**İqtisadçı-ekspert Rauf Qarayev "Şərq"ə açıqlamasında bildirib ki, bu layihənin biznesin inkişafına təkan verməsi üçün ilk növbədə mövcud vəziyyəti dəyərləndirmək lazımdır:**

"Yəni ilk növbədə həmin bölgədə sahibkarlığa icra hakimiyyətinin münasibəti, icra hakimiyyətlərinin sahibkarlarla bağlı qarşılıqlı dəstək əlaqələri dəyərləndirilməlidir. Təhlükəsizlik baxımından yerli mühafizə bölmələrinin və sahibkarlığa dəstək ola biləcək digər qurumların iş prinsipi nəzərdən keçirilməlidir. Yalnız ondan sonra bu layihələrin effektli və effektsiz olmasını bilmək olar. Çünki yuxarıdakı amillər 70-80 faiz iş prinsipinin həlli prosesini müəyyən edə biləcək faktorlardır. Artıq sahibkar və ya sahibkarlıqla məşğul olmaq istəyən şəxs tam arxayın olduqdan sonra KOBİA-nın layihəsinə qoşula bilər. İşin uğurlu olması üçün əksər halda yük bu işi başlayanın əlaqələrinin üzərinə düşür. Əgər onun əlaqələri, ona mane olan amillərə təsir imkanları varsa, bu halda o, işin effektini az da olsa görə biləcək. Hesab edirəm ki, KOBİA bu işi görməzdən əvvəl yuxarıda sadaladığım amilləri nəzərə almalıdır. Yəni sahibkar və ya sahibkarlığa başlayan şəxs, görəcəyi və gördüyü iş üçün özündə inamı olmalıdır ki, o, rahatlıqla işini görsün".

**İqtisadçı kənd qonaq evlərinin oteldən əsas üstün cəhətini onun təbiiliyi ilə izah edib:**

"Türkiyədə də buna bənzər evlər mövcuddur. Trabzonun Akçaabat bölgəsində belə kəndlər 1998-ci ildən fəaliyyətə başlayıb. Turizmin inkişafı baxımından həmin ərazilər olduqca münasibdir. Qeyd edim ki, qonaq evlərinin bir çox üstünlükləri var. Birincisi, şəxs öz evinin təmiri üçün dövlətdən dəstək alır. Bundan əlavə ona müəyyən lazımi avadanlıqlar verilir ki, orada gəlib qalan qonaq özünü öz evindəki kimi hiss etsin. Həmçinin həmin kəndliyə qonaqları qəbul etmək üçün təlimlər keçirilir. Digər hal evin sakininin ərazini yaxşı tanıması və adət-ənənələrini bilməsi qonağa əlavə məlumatların verilməsində köməklik edir. Eyni zamanda elə ərazilər var ki, orada otellərin, villaların tikilməsi mümkün deyil. Landşaft buna imkan vermir. Bu baxımdan da həmin ərazidə turistlərin qalması üçün qonaq evləri mövcud olmalıdır. Ən yaxşı qonaq evi isə yerli əhalinin gəlirinin, yəni şəxsin öz evini icarəyə aşağı qiymətlə (otellərə nisbətən aşağa qiymətlə) verməsidir. Bildiyimiz kimi, dağ kəndlərində insanlar əsasən, maldarlıqla məşğul olurlar. Bunlar üçün də geniş yaylaqlar lazımdır. Qonaq evləri maldarlıqla məşğul olmağa imkanı olmayan şəxslər üçün də əlavə şərait yaradır. Digər bir amil dağ kəndlərinin infrastrukturu turizm sahəsinə daxildirsə, abadlaşması, qaz, işıq xətlərinin yenilənməsi, yol infrastrukturunun yaxşılaşdırılmasına da təkan verir. Ona görə də kənd qonaq evləri həm kəndli, həm də buna dəstək olan dövlət üçün effektli hesab olunur".

**Sücayət Mehti**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


## Azərbaycanda bazar institutu işləmir

### Məmurlar ölkədəki bütün obyektləri ələ keçiriblər



**İnsanlar bayramların xoş xatirələrlə yadda qalması üçün istirahət mərkəzlərinə üz tuturlar.**

Yadda qalan xoş xatirələrlə yanaşı narazılıqlar da ortaya çıxır. Sosial şəbəkə istifadəçiləri bayramı xoş keçirmək üçün müraciət etdikləri istirahət mərkəzlərində qiymətlərin baha olduğunu bildiriblər.

Qarşıdan Novruz bayramı gəlir. Artıq indidən qiymətlərdə dəyişiklik müşahidə olunur.

**Bahalaşmalara səbəb olan amilləri "Şərq"ə açıqlayan iqtisadçı-ekspert Nazim Bəydəmirli bildirib ki, məmurlar obyektləri ələ keçirib:**

"Azərbaycanda bazar iqtisadiyyatı olduğuna görə qiymətlər tələb və təklif üzərində qurulur. Obyektlər əsasən məmurlara məxsus olduğundan mənimsəmələr olur. Məmurlar real sahibkarlıq fəaliyyətinə icazə vermirlər. Real sahibkarlıq olmadığına görə də bazar institutu işləmir. Pandemiya səbəbindən xaricə səfərlərin də dayandırılmasından faydalanırlar. Sistemi tənzimləməyin yolu normal iqtisadi şəraiti yaratmaqdan keçir. Lakin bu, Azərbaycanda hələlik mümkün görünmür".

**Xanlar Əlibəy**

## "….Analiz də verdim"

### Aynişan Quliyeva sağalıb



**Koronavirusa yoluxan bloqer Aynişan Quliyeva sağalıb.**

"Şərq" xəbər verir ki, bloqer bu barədə sosial şəbəkə hesabında məlumat verib. O, TƏBİB-dən "testiniz neqatidir" mesajını alıb. "Karantin 1 həftə olduğu üçün bu gün tamamlandı. Hər ehtimala qarşı analiz də verdim"-, deyə paylaşımında vurğulayıb.

*Qeyd edək ki, A.Quliyeva bir müddət əvvəl COVİD-19 virusuna yoluxub.*

**Aygün Tahir**

# Qəhr edən təsadüf!

## Filmdəki rolu kimi narkotikdən öldü



**Antaliyada, narkotikin zərərlərini izah edən "Qopdum bu həyatdan" adlı filmdə rolu gərəyi narkotikdən ölən Ayxan Akgün (19), film yayımlanmamış məhz narkotik səbəbiylə həyatını itirib. Filmin rejissoru və baş rolun ifaçısı Nihat Aslan ilə Akgünün atası rolunu oynayan Əhməd Öndeş, çox kədərli olduqlarını söyləyib.**

"Şərq" Türk mediasına istinadən xəbər verir ki, hadisə, 2 həftə əvvəl, Muratpaşa mahalına bağlı Kızılsaray məhəlləsində baş verib. Ayxan Akgündən xəbər ala bilməyən yoldaşları, getdikləri evdə gəncin cansız bədəniylə qarşılaşıblar. Araşdırma zamanı Akgünün, təxminən 1 həftə əvvəl narkotikdən həyatını itirdiyi məlum olub. Akgünlə əlaqədar ağrılı-acılı gerçək isə keçən günlərdə ortaya çıxıb.

"Qopdum bu həyatdan" adlı filmdə narkotik asılısı olan gənc rolunu oynayan Akgün, senari gərəyi ailəsinə və yoldaşlarına vida məktubu yazdıqdan sonra narkotikdən həyatını itirir. Ayxan Akgünün filmdəki kimi həyatını itirməsiylə rol yoldaşları da böyük kədər yaşadı.

Filmin rejissoru və eyni zamanda baş rolun ifaçısı Nihat Aslan, pandemiya əvvəli narkotikin zərərlərinə diqqət çəkən film hazırladıqlarını ifadə edərək, "Ayxan Akgün qardaşımız da filmdə narkotik istifadə edən bir gənci canlandırırdı. Senari gərəyi gəncimiz ailəsinə və yoldaşlarına narkotikin pəncəsindən xilas ola bilmədiyini, bu səbəblə də ölümü seçdiyini ifadə edərək "qızıl vuruş" etmişdi. Pandemiyadan dolayı filmin nümayişini təxirə salmışdıq. Önümüzdəki günlərdə filmi viziona qoymaq üçün iş görərkən, bu acı xəbəri eşitdik. Sarsıldıq. Nə edəcəyimizi bilmirik. Şokdayıq. Gəncləri xəbərdar etmək üçün rol zərurəti yaşadıqlarını gerçək həyatda da yaşadı. Narkotikdən həyatını itirdi. Çox da müvəffəqiyyətli bir gənc idi" deyə danışıb.

**Turan**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 478



# “Sosial şəbəkələrdə vaxt keçirən kişilər mənlik deyil"

Hülya Avşar jurnalistlərin sevgi suallarını cavablayıb

**Türkiyənin ünlü aktrisa və müğənnisi Hülya Avşar ötən gün axşam restoranda görüntülənib. Gündəmdən düşməyən sənətçi çox danışılan açıqlamalarına yenisini də əlavə edib.**

”Şərq” ”Cadde”yə istinadən xəbər verir ki, sonuncu dəfə ”Masumiyyet” serialında rol alan H.Avşar yemək yediyi məkan çıxışında şən əhval-ruhiyyəsi ilə diqqəti çəkib. Jurnalistlərin suallarını cavablayıb. ”Yanınızda nə vaxt birini görəcəyik” sualına məşhur aktrisa ”Mənə görə hər şey qismətdir. İstəyirəmmi, bilmirəm, çox xoşbəxtəm. Dil, din, irq, fərq etməz, həyəcanlandırması yetər” cavabını verib.

Sənətçi ”3-5 yaş fərq olar, amma çox kiçik biri ilə münasibət qurduqda gələcəkdə kədər yaradar. Sonralar qısqanclıqlar başlayar, yəni mən qısqanaram. Son zamanlar eşq həyatım barədə çox suallar verirsiniz. Növbəti vaxtlarda başıma bir iş açsam, sizi öldürərəm” deyərək, müxbirlərlə zarafatından da qalmayıb.

Məşhur aktrisa ”İnstagram”dan istifadə edən sevgili istəmərəm. Kişilərə ”İnstagram”ı yaraşdırmıram. İdmanla məşğul olmayan, sosial şəbəkələrdə vaxt keçirən kişiləri də özümə uyğun görmürəm. Ona görə də elə tərzdə biri heç olmaz, alınmaz”- deyib.

Bir zamanlar gündəmdə olan cütlüklərdən olan H.Avşar Kaya Çilingiroğlu ilə 8 il evli qaldıqdan sonra 2005-ci ildə boşanıblar. Bu evliliklərindən Zəhra adında bir qızları dünyaya gəlib. İkili boşandıqdan sonra dostluq münasibətlərini davam etdirirlər.

*Bu yaxınlarda keçmiş həyat yoldaşı və 24 yaşındakı qızları Zəhra ilə Tarabyada görüntülənən Kaya Çilingiroğlu ”Hülya, gəlin bir ailə pozası verək” ifadələrini işlədib.*

**Sücayət Mehti**





# Cütlük heyvanlarla danışa bilirlər

Susie bildirir ki, bütün insanlar heyvanlarla ünsiyyət qurmaq istedadına malikdir

**Susie Shiner və Paul Brithwaite cütlüyü qeyri-adi istedada malik olduqlarını və bunun sayəsində heyvanlarla - hətta ölü, ya diri fərq etmir - danışa bildiklərini iddia edirlər. Bu, nə dərəcədə həqiqətəuyğundur? ”Şərq” ”Milliyet.com”da yer alan məlumatı oxuculara təqdim edir. Susie və Paul cütlüyü İngiltərədə yaşayır.**

Onlar iddia edir ki, heyvanlarla ünsiyyət qura bilirlər. Məsələn, bəslədiyiniz it və ya pişiyin doyub-doymadığını, təmizlənməyə ehtiyacı olub-olmadığını, istəklərini onların özündən soruşurlar. Cütlük bunu telepatiya üsulu ilə gerçəkləşdirdiyini deyir. Telepatiya birbaşa ünsiyyət olmadan, beyin dalğalarını hərəkətə gətirməklə əlaqə yaratmaqdır. Telepatiya deyilən bir hipotez var, lakin onun nə dərəcədə real olduğu da müzakirə mövzusudur. Susie və Paul isə məhz telepatiya vasitəsilə heyvanlarla ünsiyyət qurduqlarını iddia edir. Cütlük feysbuk sosial şəbəkəsində səhifə açıb və özlərini ”İngiltərənin heyvanlarla əlaqə yaradan ən etibarlı cütlüyü” olaraq tanıdırlar. Susie bildirir ki, bütün insanlar heyvanlarla ünsiyyət qurmaq istedadına malikdir. Bu, hər bir canlının anlayacağı ümumi bir dildir. Cütlük malik olduqları istedadı əyani nümayiş etdirmək üçün turlar da təşkil edir. Turlara qatılanlara heyvanlarla necə anlaşdıqlarını göstərirlər. Cütlüyün bu fitri istedadına böyük maraq var və onlara müraciət edənlərin sayı da getdikcə artır.

**Məlahət**



# ABŞ-da zəncirvari qəza

**100-dən çox avtomobil toqquşub**



**ABŞ-ın İllinoys ştatında 100-dən çox avtomobilin iştirakı ilə zəncirvari qəza baş verib.**

**Trend-in məlumatına görə, bu barədə ştat polisi bildirib.**

**Qeyd olunur ki, qəzaya güclü qar yağması ilə əlaqədar görüş məsafəsinin azalması səbəb olub. Hadisə nəticəsində xəsarət alanların olub-olmaması barədə məlumat verilməyib.**

**Bölgədə kəskin hava şəraiti ilə əlaqədar magistral yollarda nəqliyyatın hərəkəti məhdudlaşdırılıb.**

# Teylor Svift nişanlandı



**Müğənni Teylor Svift sevgilisi, britaniyalı aktyor Co Elvin ilə nişanlanıb.**

**Axşam.az xarici mediaya istinadən xəbər verir ki, cütlük münasibətlərini rəsmiləşdirdiklərini hələlik gizli saxlayır. Buna səbəb Conun şəxsi həyatını mediada işıqlandırmaq istəməməsidir.**

***Qeyd edək ki, Teylor və Co 5 ildən çoxdur ki, birlikdədir.***

# Arda Turandan ofisianta 4 milyonluq jest

**Futbolçu öncə təəccüblənsə də, daha sonra onun xahişini geri çevirməyib**



**Türkiyəli futbolçu Arda Turan daim getdiyi restoranda çalışan ofisiantın istəyindən təəccüblənib.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, gənc oğlan 14 fevralda sevgilisinə sürpriz hazırlamaq üçün futbolçunun ”Audi RS6” markalı avtomobilini istəyib. Turan öncə təəccüblənsə də, daha sonra onun xahişini geri çevirməyib.**

***Qeyd edək ki, futbolçunun avtomobili 4 milyon lirə dəyərindədir.***



# "Dinozavr tapa bilmirdim..."

Şahbaz Xuduoğlu: “Uşaq oyuncaqları satılan mağazalara getdim, nəhayət bir yerdə tapdım...”

**”Qanun” Nəşrlər Evinin direktoru, naşir Şahbaz Xuduoğlu feysbuk hesabında maraqlı statusla çıxış edib. Naşir oyuncaq mağazasında ”dinozavr”ı boğazladığı anların fotosunu paylaşıb və sosial şəbəkə istifadəçilərinə ”bu şəklə ən yaxşı ad qoyana ”Dinozavrlar” kitabını hədiyyə edəcəm”, müraciətini edib. Fotoya qısa müddətdə 200-ə yaxın (günorta saatlarınadək) rəy yazılıb.**

Naşirin dinozavr axtarışına çıxmasının haradan qaynaqlandığı bəllidir. Vəhdət Partiyasının sədri Tahir Kərimli olayı bir neçə gündür ki, cəmiyyətdə əks-səda doğurub. Amma naşirin bu ictimai-siyasi olaydan kitabın - maarifçiliyin xeyrinə faydalanmaq istəyi, bizcə, alqışa layiqdir. Hər nə baş verirsə-versin, qazanan kitab və kitabsevərlər olsun.

*Siyasi olayı sosial müstəviyə keçirən Şahbaz bəyin özüylə əlaqə saxladıq. Qısaca söhbət etdik:*

**- Şahbaz bəy, dinozavr ”boğazlamaq” , kitab hədiyyə etmək hardan ağlınıza gəldi?**

*(Güldü)*

- Nə bilim... Gəldi də!.. Dinozavr tapa bilmirdim, uşaq oyuncaqları satılan mağazalara getdim, nəhayət bir yerdə tapdım...

**- Sizin siyasi olayı kitabın xeyrinə dəyişmək, bir naşir kimi kitab oxucularının sayını artırmaq istəyiniz gözəldi.**

- Hadisələrə hər kəs öz baxış bucağından baxır. Millət vəkili Tahir Kərimlinin çıxışı, əslində onun tərəfindən bir performans idi. Biz də bunu özümüzə uyğunlaşdırdıq. Kitab sevgimiz yenə qalib gəldi və belə bir layihə düşündük.

**- Amma Tahir Kərimlinin əlindəki əjdəha idi, dinozavr deyildi...**

- Nə fərqi? Eyni qrupa aiddilər, eyni sinifdəndilər.

**- Yazmısınız ki, bu şəklə ən yaxşı ad qoyana ”Dinozavrlar” kitabını hədiyyə edəcəksiniz. Baxmısınız rəylərə, bəyəndiyiniz var?**

- Bəyəndiklərim çoxdu. Hələ baxıram, rəylərə. Hansı rəydə bəyənmə sayı çox olsa, kitab ona qismət olacaq.

**- Həqiqətən belə kitab var, yoxsa bu, blefdir?**

- Əlbəttə, var. Çox yaxşı, şəkilli ”Dinozavrlar” kitabımız var. Ensiklopedik nəşrdir. Qalibin adını açıqlayacağıq.

***“Tahir Kərimlinin performansını biz də özümüzə uyğunlaşdırdıq, kitab sevgimiz yenə qalib gəldi”***

**- Fürsət varkən, soruşum, kənddə işlər necə gedir? Layihələriniz icra olunur?** *(xatırladım ki, Şahbaz Xuduoğlu doğma kəndlərində küçələrin təmizlənməsi, kitab köşklərinin qoyulması işləri ilə məşğul idi. Kənddə təndir də açmışdı. Ucuz və keyfiyyətli kənd çörəyi bişirilirdi - M.R.)*

- Bəli, kəndimizin küçələri təmizdi artıq. Kitabları da özüm hər dəfə gedəndə aparıram. Təndir də işləyir.

**- Çörəyin qiyməti orda da qalxdı?**

*(Gülümsədi)*

- Bilmirəm... Doğrusu, son vaxtlar maraqlanmamışam... Ümumiyyətlə, mənim yanaşmam belədir ki, kəndin çörəyi kənddən çıxmalıdır. Özümə aid torpaq sahəsində buğda əkmişəm. İyul ayında biçin vaxtı olacaq. Sonra o taxılı kənd dəyirmanında üyüdəcəyik, üyüdülmüş buğda unundan da çörək bişirəcəyik.

**Məlahət Rzayeva**

# Türkiyəni birlikdə tanıdacaqlar

Dünyanı ən uzun qadını, ən uzun kişiyə “hə” dedi



**Ginnesin Rekordlar Kitabında dünyanın ən uzun qadını olaraq tanıdılan 25 yaşlı Rumeysa Gelgi ”gəl, Türkiyəni birlikdə tanıdaq”, təklifini edən, dünyanın ən uzun boylu kişisi - 40 yaşlı Sultan Kösənə ”hə” cavabı verib.**

”Şərq” ”Milliyet.com”a istinadən xəbər verir ki, Türkiyənin Karabük bölgəsi Safranbolu əyalətində yaşayan Rumeysanın boyu ”viever sindromu” səbəbiylə sürətlə uzanır. 2014-cü ildə Rumeysanın adı 2 metr 13,5 santimetr boyu ilə dünyanın 18 yaşdan kiçik ən uzun boylu qızı kimi Rekordlar Kitabına daxil edilib. 2021-ci ildə isə Rumeysa 2 metr 15 santimetr boyu ilə dünyanın ən uzun qadını olaraq Rekordlar Kitabına adını yazdırıb və bununla ikinci rekord əldə edib. Mardində yaşayan Sultan Kösə isə 2 metr 51 santimetr boyu ulə dünyanın ən uzun boylu kişisi hesab edilir və onun da adı Ginnesin Rekordlar Kitabına daxil edilib. Rumeysa ”Sultan Kösənə böyük hörmətim var, onunla Gennesin Rekordlar Kitabı üzərində çalışmağa razıyam”, deyib. Rumeysa onurğa sütununa yerləşdirilmiş platin səbəbindən çətinlik çəkir, rahat əyləşə bilmir. Ona görə də xarici səfərlərə gedə biləcəyinə əmin deyil. O, yalnız əlil arabasıyla hərərkət edə bilər. Rumeysa ən böyük xəyalının xarici ölkələrə səfər etməsi olduğunu deyən Rumeysa, bunun çətinliyini də anlayır: ”Sultan bəyin dəvəti mənim üçün önəmlidir. Onunla şəxsən tanış olmağı istərdim. Uyğun şərtlər olarsa, bu iş üzərində birgə işləmək istərdim”.

**Məlahət**

# Avropada tank-dronun prototipi hazırlanıb



**Polşanın Dronehub kompaniyası Avropa layihəsi çərçivəsində yerdə tirtıl lentlə hərəkət edən Huuver tank-dronun prototipini hazırlayıb.**

Azərtac xəbər verir ki, bu barədə New Atlas internet portalı məlumat yayıb.

Məlumata görə, aparatın uzunluğu 137 santimetr, eni 84, hündürlüyü isə 56 santimetrdir. Huuver yerdə özünün bir cüt tirtıl lenti üzərində hərəkət edir. Litium batareya bir doldurmada onun verilən tapşırığı 10 saatadək yerinə yetirməsinə imkan yaradır. Huuver havaya tirtıl lentlərin arasında yerləşən səkkiz üfüqi pərin köməyi ilə qalxır. Aparat bir doldurmada 20 dəqiqəyədək uça bilir.

Dronun operatorları onu real zaman rejimində idarə edə bilirlər, lakin qurğu avtonom uçuşlar etmək imkanına da malikdir. Bundan başqa, pilotsuz aparat sensorlar vasitəsilə öz yolu üzərindəki maneələri aşkarlaya və onlardan yan keçə bilir.